RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 89 (8405) CÜMƏ AXŞAMI, 7 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Azərbaycanın özü qədər əbədi



# Şəxsiyyət zirvəsi

**Heydər Əliyev haqqında düşünərkən onun dahi şəxsiyyət adlı portretinin nə qədər zəngin çalarlarla yaradılmış həyat əsəri olduğuna bir daha əmin olursan. Və zaman ötdükcə bu portretin hələ kəşf olunmamış, onu daha da dolğunlaşdıran yeni cizgilərinin üzə çıxdığını görürsən. O, unikal, dahi şəxsiyyət olaraq bənzərsiz bir həyat yaşayıb, mənəvi ucalığı fəth edib. Mənə elə gəlir ki, bu elə bir zəngin həyat əsəridir ki, onu sonadək dərk etmək heç vaxt mümkün olmayacaq.**

### "El bilir ki, sən mənimsən..."

Heydər Əliyevin xalqın rifahı və xoşbəxt gələcəyi, layiqli həyat tərzinin bərqərar olması naminə göstərdiyi misilsiz xidmətlər ölçüyəgəlməzdir. Bu dünyaya ülvi bir missiya - öz xalqının xilaskarı kimi gəlmiş Ulu Öndərin əməlləri və fəaliyyəti zaman və məkan çərçivələrinə sığmır.

Heydər Əliyev bir rəhbərin öz xalqı üçün edə biləcəyi mümkün nə varsa, ona nail olub. Bütün bunların bir insan ömrünə necə yerləşdiyini düşünəndə təəccüblənməyə bilmirsən. Onun həyat və fəaliyyəti elə bir məktəbdir ki, haqqında nə qədər danışsan da, nə qədər yazsan da, bu, ümmandan bir damlaya bənzəyəcək. Xalqın öz liderinə bəslədiyi sevgi də elə o ümman qədər möhtəşəmdir. Çünki Tanrının böyük lütfkarlıqla bizə bəxş etdiyi ən dəyərli və fenomenal şəxsiyyətlərdən biri olan Heydər Əliyev doğma torpağına bağlı vətən oğlu kimi Azərbaycanın taleyüklü, çətin və ağır günlərində həmişə xalqın gücünə inanıb, yalnız ona arxalanıb. Bu inamdan ruhlanaraq, canına və qanına hopmuş vətən sevgisi ilə bütün şüurlu həyatını ölkəmizin azad və firavan bir məmləkətə çevrilməsi yolunda fəda edib. Bu məqamda 1998-ci il prezident seçkilərindən sonra "Gülüstan" sarayında təşkil olunmuş andiçmə mərasimində Heydər Əliyevin etdiyi çıxışı xatırladım. Nitqinin sonunda xalq şairimiz Səməd Vurğunun "Azərbaycan" şeirindən bir neçə misranı söyləyərkən onun hansı kövrək hisslər keçirdiyini unutmaq mümkündürmü?! Taleyimə çox minnətdaram ki, həmin anda onun duruşunda, baxışında və səsində aydınca sezilən vətən sevgisini özündən ixtiyarsız ayaq üstə alqışlayanlardan biri də mən olmuşam. İnanıram ki, böyük vətənpərvərlik hissini əks etdirən bu mənzərə gözəl və xoş xatirə kimi qəlb yaddaşlarında və tarixdə əbədi olaraq qalacaq...

Onu tariximizin ən böyük azərbaycanlısı sayanlar əsla yanılmırlar. Bu gün Ulu Öndər Heydər Əliyevin "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" kəlamı bir deviz olaraq tolerantlığı ilə seçilən ölkəmizdə yaşayan bütün xalqların vahid ideya, vahid gələcək, vahid dövlət ətrafında birləşməsi üçün bir stimula çevrilib.

*Ardı 2-ci səh.*




# İlham Əliyevin yüksək beynəlxalq nüfuzunun növbəti təcəssümü

## Azərbaycan Prezidenti bu dəfə Qoşulmama Hərəkatını koronavirus pandemiyasına qarşı səfərbər etdi

**Dünyanı çənginə alan koronavirusla demək olar ki, bütün ölkələr mübarizə aparırlar. Bu qlobal problemə qarşı ən effektiv mübarizə aparan ölkələrdən söz açdıqda isə Azərbaycanın adı birincilər cərgəsində gəlir. Reallıq da ondan ibarətdir ki, həyata keçirilən düzgün və səmərəli qabaqlayıcı və qoruyucu tədbirlər sayəsində respublikamızda bu virusun ciddi fəsadlar törətməsinə imkan verilmədi.**

### Azərbaycan koronavirusa qarşı beynəlxalq əməkdaşlığın təşəbbüskarıdır

Effektiv nəticələrə görə Azərbaycanda koronavirusa qarşı aparılan mübarizə beynəlxalq səviyyədə təqdir olunur. Həyata keçirilən tədbirlər dünyanın aparıcı maliyyə-iqtisadi qurumları tərəfindən yüksək qiymətləndirilir. Lakin respublikamız koronavirusla mübarizədə yalnız yerli nümunələr yaratmaqla kifayətlənmir. Məsələ bundadır ki, Prezident İlham Əliyev virusun qlobal problemə çevrilməsini nəzərə alaraq onunla mübarizədə beynəlxalq əməkdaşlığı zəruri hesab edir. İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsində də əsas məqsəd koronavirusun yayılmasına qarşı mübarizədə beynəlxalq əməkdaşlığın həyata keçirilməsindən ibarət olub.

Türk Şurasının fövqəladə Zirvə görüşü pandemiya ilə mübarizəyə həsr olunmuş ilk beynəlxalq tədbir idi. Bu tədbir isə məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşdı. Təsadüfi deyil ki, məhz bundan sonra qlobal problemin mənfi təsirlərini azaltmaq üçün dövlətlərin birgə səy göstərmələri bütün dünyada aktuallaşmağa başladı. Mayın 4-də isə İlham Əliyevin təşəbbüsü ilə ikinci beynəlxalq tədbir - Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirildi.

Məlum olduğu kimi, ötən ilin oktyabrında keçirilmiş sonuncu Zirvə görüşündən sonra Qoşulmama Hərəkatına rəhbərliyi Azərbaycan həyata keçirir. Hərəkatın sədri isə Prezident İlham Əliyevdir. Çoxtərəfli diplomatiyanın təşviq edilməsi, üzv dövlətlər arasında əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi cənab İlham Əliyev tərəfindən Azərbaycanın Qoşulmama Hərəkatında rəhbərliyinin prioritetlərindən biri kimi müəyyən edilib. Eyni zamanda Azərbaycan təşkilata rəhbərliyi bütün dünya üçün həssas bir dövrdə qəbul edib və bu, müasir dünyanın çağırışlarına uyğun və effektiv reaksiyalar tələb edir.

*Ardı 7-ci səh.*

# Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması məqsədilə **qərara alıram:**

1. Respublika ərazisində modul tipli məktəblərin (siyahı əlavə olunur) quraşdırılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.16.2-ci yarımbəndində "Respublika ərazisində modul tipli təhsil müəssisələrinin quraşdırılması" üçün nəzərdə tutulmuş 10,0 (on) milyon manat Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2020-ci il*





Əsrlər öncə Muğanda yerli sakinlər pambıqçılıqla məşğul olmuşlar. Bu bərəkətli diyarda yetişdirilən pambığın şöhrəti bütün Şərqə yayılmışdı. Sovet hakimiyyəti illərində isə Muğanın mərkəzi sayılan Sabirabad ölkənin ən iri pambıq istehsalçılarından biri kimi məşhur idi.

# Sabirabadda aqrar sektorun inkişafına xüsusi önəm verilir

## Pambıq isə kəndlinin firavan həyatını təmin edir

Təsadüfi deyil ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə 15 dəfə Sabirabada səfər etmiş, rayonun adlı-sanlı əmək qəhrəmanları ilə tarlalarda, iş başında görüşmüş, gəlirli sahə olan pambıqçılığı inkişaf etdirmək üçün dəyərli tövsiyələrini vermişdir. Bu gün dərin minnətdarlıq hissi ilə deyə bilərik ki, Ulu Öndərin böyük qayğısı Sabirabadı və sabirabadlıları xoş günlərə qovuşdurmuşdur. Talelərini mənalı əməyə, halal zəhmətə bağlayan Fatma Hüseynova, Zəminə Aslanova, Narınc Kərimova, Zahid Bağırov, Gülabba Xəlilov, Çervon Azayeva, Mətanət Məmmədova və onlarca başqaları məhz Ulu Öndər Heydər Əliyevin qayğısı sayəsində Muğanın parlaq ulduzlarına çevrilmişlər.

Sabirabadın malik olduğu böyük aqrar potensial təbii ki, Prezident İlham Əliyevin bölgəyə göstərdiyi xüsusi münasibətin əsas amillərindəndir. Özünün mürəkkəb və çoxtərəfli fəaliyyətinin bütün istiqamətlərində Heydər Əliyev kursuna sədaqətli olan Prezident İlham Əliyev bərəkət boğçası olan Muğana münasibətdə də varislik missiyasını şərəflə reallaşdırır. Kənd təsərrüfatında ənənəvi sahələri inkişaf etdirmək, xüsusilə pambıqçılığın əvvəlki şöhrətini qaytarmaq barədə tarixi çağırış edən dövlət başçısı təsadüfi deyil ki, bu sahəyə həsr olunmuş birinci respublika müşavirəsini 2016-cı il sentyabrın 17-də məhz Sabirabadda keçirdi. Heç şübhəsiz, bu yanaşma Sabirabad kəndlisinin tapşırılan işə münasibətini qat-qat artırdı. Bu tarixi dönüşə qədər rayonun mövcud 74 kəndindən yalnız 30-da pambıq əkilib-becərilirdi. 2016-cı ildə 1633 hektarda pambıq əkilmiş, hər hektardan 11.3 sentner olmaqla cəmi 1853 ton məhsul istehsal edilmişdi. O zaman rayon üzrə 2 pambıq qəbulu məntəqəsi fəaliyyət göstərirdi ki, onun da biri Saatlı pambıq zavodunun filialı idi. Maddi-texniki baza son dərəcə zəif idi. Cəmi 4 ədəd pambıqyığan maşın, 10 ədəd şum traktoru vardı.

*Ardı 7-ci səh.*

# Azərbaycan qazının yolu Avropayadır

## TAP-la mavi yanacaq nəqlinin bu ilin payızında başlanması gözlənilir

**"Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan Trans-Adriatik Qaz Boru Kəmərinin çəkilişi davam edir və işlərin 95 faizə qədəri artıq yerinə yetirilib. Layihə üzrə kapital xərcləri 4,5 milyard avro olan bu kəmər Avropanın üç ölkəsinin ərazisindən - Yunanıstan, Albaniya və İtaliyadan keçir. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.**

TAP-ın Yunanıstan hissəsində sınaq məqsədilə qaz nəqlinə hələ ötən ilin noyabr ayında başlanıb. Kəmərin Yunanıstandakı Evros çayı ilə Kipoidəki kompressor stansiyası arasında olan xəttinin iki kilometrlik hissəsinə təbii qaz qəbul edilib. Bu, boru kəmərinin istismara verilməsi prosesinin ilkin mərhələsi sayılır. Qazın boru kəməri sisteminə daxil edilməsi "Şahdəniz-2"dən çıxarılan mavi yanacağın Avropaya tədarükünün başlanğıcı üzrə növbəti mərhələdir. TAP vasitəsilə ticari məqsədlə qaz nəqlinin bu ilin oktyabrında, yəni İtaliyaya qədər olan hissə tam istifadəyə veriləndən və sınaqdan keçiriləndən sonra gözlənilir.

Təbii qazın tədricən boru kəmərinin Yunanıstan marşrutunun digər hissələrinə, eləcə də Albaniya və İtaliyaya mərhələli şəkildə nəql edilməsinə başlanacaq.

Layihənin operatoru olan TAP AG şirkətinin yaydığı məlumata görə, kəmərin inşası üzrə hər gün yüzlərlə metr ərazi təmizlənir, borular marşrut xətti boyunca düzülür, qaynaqlanır, xəndəyə endirilir və torpaq örtüyü bərpa olunur.

*Ardı 7-ci səh.*

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

1923 Azərbaycanın özü qədər əbədi 2020

# Şəxsiyyət zirvəsi

Əvvəli 1-ci səh.

### Heydər Əliyev şərəf və ləyaqət rəmzidir

Həyat kitabını vərəqlədikcə Ulu Öndərin üzləşdiyi bütün ağır və çətin vəziyyətlərin əqidə, mənlik və ləyaqət sınağından qalib çıxan bir şəxsiyyət olduğunu görürsən. O, keçmiş Sovet İttifaqının ali rəhbərliyindən uzaqlaşdırıldıqdan və hətta ağır ürək xəstəliyi keçirdikdən sonra öz qamətini dikəldərək əqidəsi uğrunda mübarizə yolunda mətin addımlarla irəliyə davam edi. Hələ qara qüvvələrin böyük güc sahibi olduğu o dövrdə Heydər Əliyev 20 yanvar hadisələri ilə bağlı ən kəskin və cəsarətli bəyanat verərək bu qanlı tarixə ilk obyektiv qiyməti ilə seçilən şəxs oldu.

Ulu Öndərin bioqrafiyasında buna bənzər mərdlik və dəyanət nümunələrinin sayı-hesabı yoxdur. Xatırlayırsınızsa, Dağlıq Qarabağ məsələsinin də müzakirə olunduğu ATƏT-in Lissabon sammitində o, böyük diplomatik təmkin və qətiyyət nümayiş etdirərək, öz xalqının mövqeyini ayağa verməmək üçün, beynəlxalq aləmdə və bu təşkilatın tarixində ilk dəfə olaraq veto hüququndan istifadə edən yeganə dövlət başçısıdır.

Heydər Əliyev Xəzər dənizinin statusuna dair məsələ ilə bağlı İrana rəsmi səfəri zamanı da müzakirələrin gedişində İran prezidentinin sözünü kəsərək onun işlətdiyi "Mazandaran gölü" ifadəsinə sərt reaksiya verməklə böyük cəsarət göstərmişdi. Bu, öz ölkəsinə və dövlətinə şərəf gətirmiş qürur və mənlik nümunəsidir.

Heydər Əliyevin güclü şəxsiyyət kimi qabarıq cəhətlərindən biri onun hətta ən böyük siyasətçilərin qibtə etdiyi polad kimi möhkəm iradəyə malik olması idi. Bununla bağlı ürək ağrısı, lakin fəxarət hissi yaşadan bir hadisəni heç zaman unuda bilməyəcəyəm. Belə bir səhnəni gözünüzün önünə gətirin: Azərbaycan Prezidenti Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yubileyində tribunada çıxış edir. Bu zaman o, qəflətən güclü ürək tutması nəticəsində yıxılır, lakin bədənindəki çoxsaylı zədələrin, sınıqların ağrısını dəf edərək öz nitqinə davam etmək üçün yenidən qalxır... Axı bir Ali Baş Komandan olaraq onun qarşısında gənc zabitlər dayanmışdı... Vətəni qorumaq missiyasını daşıyan əsgər üçün bundan da böyük və ibrətamiz dərs ola bilərmi?!

### Qeyri-adi insan, uzaqgörən siyasətçi, xarizmatik lider

Heydər Əliyevin unikallığını səciyyələndirən xüsusiyyətlər saysız-hesabsızdır. Tanrı onu siyasi fəhm kimi nadir istedadla mükafatlandırmışdı. Adi vətəndaşdan tutmuş dünyanın ən qüdrətli ölkələrinin başçılarına qədər onunla müxtəlif mövzular ətrafında ünsiyyətdə olan hər kəs qarşısındakının fenomenal yaddaşından və ensiklopedik biliklərindən heyrətə gəlirdi. Bu kimi keyfiyyətlər, təbii ki, Heydər Əliyevə dövlət idarəçiliyində və vaxtında dəqiq qərarlar qəbul etməsində öz töhfəsini vermişdi.

Hələ Sovet Azərbaycanına rəhbərlik etdiyi dönəmlərdə respublikamızın mərkəzdən asılılığını azaltmaq üçün müasir sənaye müəssisələrinin yaradılması, hərbi məktəblərin təsis olunması, Ulu Öndərin milli sərvət adlandırdığı istedadlı gənclərin SSRİ-nin aparıcı ali məktəblərində təhsil alması üçün kvotaların əldə olunması, Azərbaycan dilinin dövlət dili kimi möhkəmləndirilməsi və bir çox digər məsələlər onu göstərir ki, ölkəmizin gec-tez müstəqil dövlət olacağına Heydər Əliyevin böyük inamı olub. Zaman keçdi və tarix 1991-ci ildə ilk olaraq Naxçıvanda Azərbaycanın üçrəngli milli bayrağını dövlət atributu kimi başının üstünə qaldıran Ümummilli Liderin dahi uzaqgörənliyinə şahidlik etdi.

Məsələləri əhəmiyyətinə görə məntiqi ardıcıllıqla doğru-düzgün sıralamaq bacarığı siyasi liderlərə xas olan əsas cəhətlərdən biri sayılır. Ötən əsrin 90-cı illərinin əvvəlində müstəqilliyimizin itirilməsi təhlükəsi ilə üzüzə qaldığımız bir zamanda Dağlıq Qarabağ müharibəsi nəzərdə tutulmuş neft strategiyasının reallaşmasına ən ciddi maneə idi. Heydər Əliyev Horadiz əməliyyatında böyük hərbi uğur qazanmaqla Azərbaycan ordusunun gücünü nümayiş etdirərək düşməni atəşkəs barədə razılığa gəlməyə məcbur etdi. O zamanlar bunu məğlubiyyət kimi qələmə vermək istəyənlər hadisələrin sonrakı gedişində yanlış düşündüklərini etiraf etmək zorunda qaldılar.

Hər zaman müdrik Azərbaycan xalqının dəstəyinə arxalanan siyasətçi və rəhbər kimi o, əmin idi ki, qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün milli əqidə birliyinin və həmrəyliyin alternativi yoxdur. Azərbaycanın müstəqilliyinə qarşı baş vermiş 1994-cü il qiyamı zamanı bir çağırışla dəqiqələr ərzində az qala bütün Bakı əhalısinin Heydər Əliyevin ətrafına toplanması xarizmatik lider obrazını canlandıran nümunədir.

### Heydər Əliyev: "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır"

Ulu Öndər milli-mənəvi dəyərlərin daha çox təzahür etdiyi və dövlətin rüşeymi sayılan ailə məfhumuna xüsusi dəyər verir, övlad tərbiyəsində qadının rolunu yüksək qiymətləndirirdi. Lakin eyni zamanda o, Azərbaycan qadınlarının ictimai proseslərə daha fəal şəkildə qoşulmasının tərəfdarı idi.

O dövrdə daha qlobal hesab olunan məsələlərin bir qədər kölgəsində qalmış qadın hüquqlarının səmərəli şəkildə təmin olunmasına dövlət tərəfindən güclü dəstəyə ehtiyac yarandığını hiss edən və dövlətçilik baxımından zərif cinsin idarəetmədə roluna böyük əhəmiyyət verən Heydər Əliyev 1996-cı ildə Qadın Problemləri üzrə Dövlət Komitəsinin təsis olunması barədə müvafiq sərəncam imzaladı. 2006-cı ildə isə statusu və səlahiyyətləri genişləndirilən qurum ötən dövr ərzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi kimi yaddaqalan uğurlu fəaliyyətə imza atmışdır. Azərbaycan qadınlarının öz potensialının reallaşmasında bu qurumun rolu çox böyükdür.

Həm tarixi nümunələrimiz, həm də çağdaş Azərbaycan ailəsinin problemlərini xüsusi diqqət altında saxlayan, Azərbaycan qadınının adını beynəlxalq miqyasda ləyaqətlə təmsil edən, öz gözəlliyi, mərhəməti, siyasi fəaliyyəti ilə dünyanın lider qadınlarını çox geridə qoyan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın timsalında isə müasir örnəyi olan Azərbaycan qadını cəmiyyət və dövlət həyatının bütün istiqamətlərində inkişafa töhfə verərək, həm də Heydər Əliyevin ruhu qarşısında öz mənəvi borcuna sadiqlik göstərməkdədir.

### İncə duyğularla dolu ürək

Heydər Əliyevin malik olduğu hər bir xüsusiyyəti barədə saatlarla, günlərlə danışmaq olar. Və bölüşdükcə də bu fikirləri daha da dolğunlaşdıran və bitmək bilməyən yeni düşüncələr ortaya çıxır. Təbii ki, bir yazıda bunu etmək mümkün deyil. Lakin mən burada onu təkcə bir lider və dövlət xadimi kimi xarakterizə edən bəzi keyfiyyətləri haqqında deyil, həm də xalqımızın milli-mənəvi və vazkeçilməz ailə dəyərlərinin sintezindən yoğrulmuş bitkin və mükəmməl obrazına diqqəti çəkmək istərdim.

Nə qədər ciddi və sərt görünməsinə baxmayaraq, o, olduqca duyğusal və çox zərif qəlbli bir insan idi. Ətrafında cərəyan edən hadisələrə təmkinli münasibətini qoruyub saxlamağa çalışardı və demək olar ki, buna həmişə nail olardı. Lakin onun şəxsi həyatındakı əvəzolunmaz bir itkinin ağrı-acısı onu heç vaxt tərk etmirdi. Özünün yeganə dostu saydığı ömür-gün yoldaşı Zərifə xanım Əliyevanı xatırlayarkən onun çöhrəsinə ürək sızladan nisgilli bir ifadə qonurdu. Belə anlarda o, Zərifə xanım haqqında düşünərkən qürur hissinə qarışmış xiffətini gizlədə bilmirdi. Ona gənclik illərini xatırladan "Küçələrə su səpmişəm" xalq mahnısını xüsusi bir zövqlə, sonsuz məhəbbət və həm də kədərlə zümzümə edərdi. Hec nə ilə əvəz olunmayacaq bu itkinin onun həyatındakı izini və doğurduğu təəssüfü ailə dəyərlərinə bir sədaqət nümunəsi kimi Ulu Öndərin həyatından bəhs edən əsərlərdə də açıq-aşkar görmək olar.

### Hər zaman xalqın içində

O, öz xoşbəxtliyini xalqına xidmətdə görürdü. Sadə insanların içində olmaqdan həzz alırdı. Böyüklə böyük, uşaqla uşaq kimi rəftarı vardı. Ona görə də hər kəsin Heydər babası idi o...

Hələ uşaq vaxtı onunla görüşmək nəsib olmuş adamlardan biri kimi özümü xoşbəxt sanıram. Bu, ötən əsrin 70-ci illərinin xatirəsidir. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin Füzuli rayonuna səfəri zamanı onu çiçəklərlə qarşılayan məktəblilərin içində mən də var idim. Onun mehriban, gülümsər çöhrəsi, nəvaziş dolu baxışları bu gün də gözümün önündədir. Sonralar taleyin xoş qisməti sayəsində buna bənzər hissləri təkrar-təkrar yaşamışam. YAP-ın ilk üzvlərindən biri kimi mənə partiyaya üzvlük vəsiqəsini şəxsən özü təqdim edəndə də, məni Prezident Aparatına məsul vəzifəyə təyinatımla bağlı qəbul edəndə də, ictimai-siyasi fəaliyyətlə bağlı keçirilən görüşlərdəki söhbətlər zamanı da. Hər görüşdən sonra çəkilmiş xatirə şəkillərinə, haqqında çəkilmiş filmlərə baxanda adamı bürüyən kövrək və səmimi duyğuları ifadə etmək çətindir.

Ulu Öndər Azərbaycan elminin və mədəniyyətinin inkişafına töhfə vermiş insanlara, söz ustalarına böyük diqqət və qayğı ilə yanaşırdı. Eyni zamanda sadə insanlarla çox rahat şəkildə ünsiyyət qura bilirdi. Uşaqlara qoşularaq onlarla bərabər rəqs etməsini, məcburi köçkün gənclərin toy mərasimində şövqlə qol qaldırıb oynamasını, əsgər və zabitlərlə doğma bir insan kimi səmimi söhbət etməsini, onun görüşünə gəlmiş yerli sakinlərlə oturub xüsusi bir həvəslə armudu stəkandan dişləmə qəndlə kəklikotu çayı içməsini və yaxud göycə meyvəsindən dadmasını əks etdirən kadrlar Heydər Əliyevi insanların yaddaşına məhz bu səmimiyyət zirvəsindən köçürüb.

Həyatın mənasını, fəlsəfəsini dərindən dərk etdiyindəndir ki, yalnız xalqın rifahını düşünən Heydər Əliyev sadə həyat tərzinə üstünlük verir, daha çox mənəvi dəyərləri önə çəkirdi. El dilində desək, o, dünya malında gözü olmayan, əxlaqına yalnız yüksək mənəvi dəyərlərin hopduğu çox zəngin bir şəxsiyyət idi. Bəlkə elə buna görədir ki, sənətinə yüksək qiymət verdiyi Xalq şairi Məmməd Arazın sözlərinə bəstələnmiş "Dünya sənin, dünya mənim..." adlı mahnıya qulaq asmağı çox sevirdi.

### Yazılmamış əsərlərin qəhrəmanı

Heydər Əliyev heç vaxt kitab yazmayıb, xatirələrini qələmə almayıb. Bunun üçün sadəcə onun zamanı olmayıb. Lakin bütün dünya xalqlarının çox sadə dildə başa düşdüyü, əsrlərə sığmayan, hər sözü, hər izi, hər addımı məna yükünə görə cild-cild kitablara mövzu olan qızıl tarix yaradıb. Haqqında yazılan əsərlər bütöv bir epoxanın inkişaf yoluna işıq salır, siyasi baxışları alimlərin və siyasi texnoloqların tədqiqat obyektinə çevrilir. Təsadüfi deyil ki, dünyanın güc mərkəzləri sayılan dövlətlərin başçıları, beynəlxalq aləmdə tanınmış məşhur siyasətçilər Heydər Əliyevi dünya tarixinin nəhəng şəxsiyyətləri ilə müqayisə ediblər. Qələm əhli onu ictimaiyyətə dünyada baş verən siyasi proseslərə əhəmiyyətli dərəcədə təsir göstərmək gücündə olan nəhəng siyasət korifeyi kimi təqdim edir.

Ulu Öndərin həyatından bəhs edən çoxsaylı bədii-sənədli filmlərin müəllifi olan görkəmli rejissor Vaqif Mustafayevin çox maraqlı bir fikri var. O deyir ki, Heydər Əliyev yazılmamış romanların, çəkilməmiş filmlərin qəhrəmanıdır. Həqiqətən də, inanıram ki, Heydər Əliyevin irsi hələ bundan sonra da əsrlər boyu alimlər və siyasətçilər tərəfindən tədqiq ediləcək və geniş oxucu və tamaşaçı auditoriyasının diqqətini çəkəcək.

### Bizim tale payımız: əgər o, olmasaydı...

Belə bir deyim var ki, həyat və tale kaleydoskop kimidir. Hətta kiçik bir bucaq altında firlatdıqda belə ümumi mənzərə tamamilə dəyişir. Düşünürəm ki, həyat yolunu labirintə bənzədənlər də öz fikirlərində haqlıdırlar. Çünki bəzən geniş və rahat yolda aşıla bilinməyəcək bir sədlə qarşılaşa bilərsən. Lakin sonra çıxış yolunun dar və heç də hamar olmayan cığırlardan keçdiyi bəlli olur. Ona görə də doğru yolu seçə bilmək bacarığı məhz Heydər Əliyev kimi güclü siyasi fəhmə və iti zəkaya malik dahilərə məxsusdur. Çünki Azərbaycan öz müstəqilliyini yalnız onun sayəsində qoruyub saxlaya bildi və özünün təbirincə desək, "dünyaya günəş kimi doğdu".

Hərdən düşünürəm ki, Heydər Əliyev olmasaydı, Azərbaycanı nə gözləyirdi? Və hər dəfə də təlatümlü okeanda kompasını itirmiş və qiymətli yük daşıyan gəminin taleyi gözümün önünə gəlir. Hansı ki, ya qayalara çırpılaraq məhv olur, ya da yedəyə möhtac olur. Ona görə də Azərbaycan xalqı çox xoşbəxtdir ki, onu o burulğanlardan sağ-salamat çıxararaq müstəqillik limanına çatdırmış Heydər Əliyev kimi bir kapitanı olub.

Bir neçə gündən sonra anadan olmasının 97-ci ildönümünü qeyd edəcəyimiz Ulu Öndərin doğum günü - 10 may tarixi bu il təqvimdə 75 illiyini təntənə ilə qeyd edəcəyimiz Qələbə günü ilə yanaşıdır. Bu, ilk nəzərdə simvolik görünsə də, düşünürəm ki, əslində, həyatda da həmişə qələbə onun yanında olub, onu müşayiət edib. Yəni harada Heydər Əliyevin adı varsa, orada uğur var. Bu siyasi kursu yeni çağırışlar fonunda daha möhtəşəm qələbələrlə davam etdirən islahatçı lider cənab İlham Əliyevin ətrafında sıx birləşmiş Azərbaycan xalqı özünə mənəvi ata saydığı Heydər Əliyevin qüdrətli əlini həmişə öz kürəyində hiss edəcək. Ona görə də əminəm ki, Ulu Öndər haqqında yazılmış mahnıda olduğu kimi:

*"Nə qədər Azərbaycan, nə qədər bu millət var, Heydər "xalqım" deyəcək, xalq "Heydər" söyləyəcək!.."*

**Bahar MURADOVA,**
***Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü, siyasi elmlər üzrə fəlsəfə doktoru***



# Uğurlu sosial müdafiə strategiyasının banisi

Dövrünün xarizmatik şəxsiyyətləri xalq üçün çətin dönəmlərdə qarşıda duran vəzifələrin həlli yollarını düzgün müəyyənləşdirmək, insanları milli məqsədlər ətrafında səfərbər etmək, irəli sürdükləri mütərəqqi ideyaları əzmlə gerçəkləşdirmək bacarıqları sayəsində ümummilli liderlik zirvəsinə ucalmışlar. Bu gerçəkliklər fonunda XX əsrdə xalqımızın dünya siyasətinə bəxş etdiyi böyük şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixindəki müstəsna yeri və rolu qabarıq görünür.

Ümummilli Lider Heydər Əliyevin bacarıqlı və təcrübəli dövlət xadimi, müdrik siyasətçi, dövlətçiliyin möhkəm təməlini yaradaraq onu möhkəmləndirən, davamlı inkişaf yoluna çıxaran qüdrətli şəxsiyyət kimi həyat və fəaliyyəti müasir tariximizin çox mühüm mərhələsini təşkil edir. Anadan olmasının 97-ci ildönümü respublikamızda geniş qeyd edilən Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası müstəqil Azərbaycanın hərtərəfli inkişafına ən etibarlı təminatdır.

Hələ 1969-cu il iyul ayının 14-də sovet Azərbaycanına ali rəhbər vəzifəyə irəli çəkilən Ümummilli Lider ilk günlərdən mərkəzin ideoloji maneələrini aradan qaldırmaqla xalqın milli şüurunu oyatmağa çalışmış, Azərbaycan xalqının gələcək müstəqilliyi üçün bütün imkanlardan istifadə etmişdir. Əminliklə demək olar ki, 1969-1982-ci illərdə həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər, abadlıq-quruculuq işləri miqyasına görə Azərbaycanın inkişaf salnaməsinin ən dolğun səhifələrini təşkil edir.

Respublikamız məhz həmin illərdə formalaşmış möhkəm iqtisadi-siyasi, hüquqi təməl üzərində 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini bərpa etsə də, cəmiyyətin bütün sahələrində hökm sürən böhranlı və xaotik vəziyyət yalnız Ulu Öndərin xalqın təkidli istəyi ilə hakimiyyətə qayıdışından sonra aradan qaldırılmışdır. 1993-cü ilin ikinci yarısından etibarən Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda atılan inamlı addımlar, həyata keçirilən sosial-iqtisadi islahatlar respublikamızın milli inkişaf modelinin formalaşması prosesini daha da sürətləndirmişdir.

Ulu Öndər ilk gündən özünəməxsus müdrikliklə bəyan etmişdir ki, siyasi sabitliyə nail olmadan yeni idarəetmə sisteminə keçidi reallaşdırmaq, bazar iqtisadiyyatı və demokratiya kimi fundamental prinsiplərin tətbiqinə nail olmaq qeyri-mümkündür. Heydər Əliyev böyük strateq olaraq Azərbaycanda milli dövlətçiliyin prioritet inkişaf istiqamətlərini müəyyənləşdirərkən xalqın milli mentalitetinin səciyyəvi cəhətlərini də nəzərə almışdır.

Böyük Öndərin siyasi uzaqgörənliyinin, prinsipiallığının və iradə nümayişinin məntiqi nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin əfsanədən reallığa çevrilməsi ölkənin bütün strateji əhəmiyyətli sahələrinin inkişafına təkan vermişdir. "Əsrin müqaviləsi"nin imzalanmasının milli inkişafdakı misilsiz əhəmiyyəti bugünkü intensiv sosial-iqtisadi inkişaf fonunda daha qabarıq görünür. Azərbaycana son illərdə daha böyük uğurlar gətirən bu strategiyanın əsas mahiyyəti ölkənin malik olduğu təbii sərvətlərdən Azərbaycan xalqının rifahı naminə daha uğurlu şəkildə istifadə etməyə əsaslanır.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biri də müstəqil respublikamızın ilk Konstitusiyasının yüksək demokratik meyarlar əsasında hazırlanması və ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi olmuşdur. Konstitusiyamız ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının, eləcə də sosial hüquqların təminatına, ümumən, sosial dövlət konsepsiyasının reallaşmasına hüquqi baza yaratmışdır. Azərbaycan dövlətinin hər bir vətəndaşının rifahının yüksəldilməsinin, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qaldığı bəyan edilmişdir. Əsas Qanunda təsbit edilmiş normalar bazar münasibətləri şəraitində sosial dövlət konsepsiyasının reallaşdırılmasının fundamental normativ-hüquqi bazasının yaradılmasına, eləcə də həmkarlar ittifaqlarının cəmiyyətdəki rolunun və statusunun möhkəmlənməsinə səbəb olmuşdur.

Ulu Öndərin irəli sürdüyü sosial dövlət prinsipinin rəhbər tutulması səbəbindən müstəqilliyin ilk illərindən başlayaraq ölkə əhalisinin aztəminatlı təbəqəsi keçmiş sovet sisteminin iqtisadi məzmununa daha çox bağlı olan, qısa vaxt ərzində dəyişdirilməsi çətinliklər törədən əvvəlki sosial müdafiə sisteminin bazar iqtisadiyyatı ilə ciddi uyğunsuzluğunun təsirini kəskin hiss etməmişdir. Qısaca xatırlatmaq istərdik ki, aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə 1996-2003-cü illər ərzində Azərbaycan Respublikası Prezidentinin 8 fərman və sərəncamı, Nazirlər Kabinetinin 2 qərarı qüvvədə olmuş, əməkhaqlarının artımı hesabına pensiya və müavinətlərin orta aylıq məbləği 1995-2003-cü illər ərzində 8 dəfə yüksəlmişdir.

Ümumilikdə, 1993-2003-cü illərdə dövlətçiliyin mükəmməl təməl prinsiplərini yaradan Heydər Əliyev idarəçilikdə səriştəsizliyə, qətiyyətsizliyə, bəsitliyə birdəfəlik son qoyaraq uğurlu daxili və xarici siyasət yürütmüş, dünyanın fövqəlgüc dövlətlərini Azərbaycanla hesablaşmaq məcburiyyətində qoymuşdur. Milli maraqlara cavab verən xarici siyasət yeridən müstəqil Azərbaycan nəticədə Cənubi Qafqazın lokomotiv dövlətinə çevrilmiş, ölkəmizin regionda gerçəkləşdirilən bütün transmilli layihələrdə iştirakı təmin olunmuşdur.

2003-cü ildə "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" şüarı ilə prezident səlahiyyətlərinin icrasına başlayan cənab İlham Əliyev də bazar iqtisadiyyatı şəraitində "sosial dövlət" konsepsiyasından çıxış edərək insan və vətəndaş mənafeyinə xidmət edən çoxşaxəli islahatlar həyata keçirir. Azərbaycan Prezidenti ötən 17 ildə respublikada dinamik sosial-iqtisadi tərəqqini təmin edən ictimai-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin qorunub saxlanması, ölkənin beynəlxalq arenada nüfuz və mövqelərinin möhkəmləndirilməsi, ictimai həyatın bütün sahələrində proqressiv islahatların aparılması istiqamətində mühüm addımlar atmışdır. Ötən müddətdə həyata keçirilən siyasət - sosial-iqtisadi, mədəni tərəqqi yolunda atılan bütün addımlar məhz vətəndaşların rifahına, firavanlığına hesablanmışdır.

Neft gəlirlərinin iqtisadiyyatın vacib sahələrinə, xüsusən də qeyri-neft sektoruna, istehsal sahibkarlığına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması, bir sözlə, əhalinin sosial müdafiə tədbirlərinin gücləndirilməsi Azərbaycanda bu gün də həyata keçirilən sosialyönümlü iqtisadi siyasətin ana axarını təşkil edir. Xüsusilə, qeyd etmək istərdik ki, 2018-ci ilin 11 aprel seçkilərindən sonra sosialyönümlü islahatlarda keyfiyyətcə yeni mərhələ başlanmış, əhalinin aztəminatlı və imtiyazlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən kompleks tədbirlər həyata keçirilmişdir.

Dünya ölkələrinin əksəriyyətinin son 5 ayda koronavirus pandemiyası qarşısında ciddi sosial-iqtisadi, tibbi, mənəvi-psixoloji problemlərlə üzləşdiyi, hətta vəziyyətə nəzarəti itirdiyi bir zamanda Azərbaycanın iqtisadi inkişaf tempini qoruyub saxlaması, eləcə də ciddi sosial paketin reallaşdırılması dövlət rəhbərinin müdrik və uzaqgörən siyasətinin nəticəsi kimi cəmiyyətdə yüksək qiymət alır. Bu gün Azərbaycanın koronavirus infeksiyasına ən az yoluxma və ölüm sayı müşahidə edilmiş ölkələr sırasında olması, üstəlik, xüsusi karantin rejiminin mərhələlərlə yumşaldılması, ilk növbədə, cənab İlham Əliyevin rəhbərliyi ilə vaxtında həyata keçirilmiş qabaqlayıcı, səmərəli və ardıcıl tədbirlərin nəticəsidir.

Son 2 ayda Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilən onlayn beynəlxalq tədbirlərin nüfuzlu əcnəbi iştirakçıları, dövlət və hökumət başçıları, müxtəlif təşkilatların nümayəndələri respublikamızın bu sahədə keçirdiyi tədbirləri mütərəqqi, öyrənilməsi və tətbiqi zəruri olan model kimi dəyərləndirirlər. İqtisadi tənəzzül keçirən 150-dən çox ölkənin Beynəlxalq Valyuta Fondu və Dünya Bankına yardım üçün müraciət etdiyi bir dönəmdə Azərbaycanın ümumi daxili məhsul istehsalında 1,1 faiz, qeyri-neft istehsalında 7 faiz artıma nail olması, üstəlik, digər dövlətlərə və qurumlara yardım göstərməsi mühüm uğurlar sırasında qeyd olunmalıdır.

Son aylarda mühüm dövlət proqramlarının işlənib hazırlanması və qəbulu sosial təcrid tədbirləri nəticəsində iş yerlərini müvəqqəti itirmiş vətəndaşlara və sahibkarlıq subyektlərinə ciddi dəstək olmuşdur. Prezident İlham Əliyevin 19 mart 2020-ci il tarixli Sərəncamı əsasında pandemiyanın iqtisadiyyata, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədi ilə dəyəri 2,5 milyard manata çatan sosial-iqtisadi dəstək paketinin qəbulu cəmiyyətdə ciddi dəstək və razılıqla qarşılanmışdır. Pandemiya dövründə mikro, kiçik, orta və iri sahibkarlıq subyektləri üçün ciddi güzəştlərin nəzərdə tutulması iş adamlarına dəyən zərərin kompensasiya edilməsi baxımından olduqca əhəmiyyətlidir.

Pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən 300 mindən çox insanın əməkhaqlarının əhəmiyyətli hissəsinin dövlət tərəfindən dəstəklənməsi, 300 minə yaxın mikro sahibkarın ümumilikdə 600 minə yaxın insanın dövlətdən maddi yardım alması dövlət başçısının daim xalqın yanında olduğunun əyani təsdiqidir. Ümumilikdə, ilin birinci rübündə 2,3 milyon vətəndaşa 1,5 milyard manat məbləğində sosial ödənişin həyata keçirilməsi, 910 min insanın, o cümlədən qeyri-neft sektoru üzrə 690 min nəfərin məşğulluğunun təmini uğurlu sosialyönümlü tədbirlər sırasındadır.

Elektrik enerjisinin aylıq istehlak həcminin iki ay müddətinə artırılması, aztəminatlı ailələrdən olan 17 min tələbənin təhsil haqqı xərclərinin dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi, yaşı 65-i ötmüş məhkumların əfv edilməsi hər bir vətəndaşın mənafeyinə cavab verən düşünülmüş və qətiyyətli addımlardır.

Pandemiya dövründə kölgə iqtisadiyyatına, qeyri-formal məşğulluğa qarşı həyata keçirilən kompleks mübarizə tədbirləri əmək müqavilələrinin də sayının artmasına imkan vermiş, yanvar ayı ilə müqayisədə bu artım 80 minə bərabər olmuşdur.

Pandemiya dövründə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən sosial dəstək aksiyası da aztəminatlı vətəndaşların problemlərinin həlli baxımından əhəmiyyətli olmuşdur. "Biz birlikdə güclüyük!" şüarı ilə həyata keçirilən aksiya çərçivəsində respublika üzrə 100 minədək aztəminatlı ailəyə ərzaq yardımlarının paylanılması nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışlarına qoşulan Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası da pandemiya ilə bağlı həyata keçirdiyi sosial tədbirlərdə yaxından iştirak edir. Belə ki, sosial dəstək tədbirləri çərçivəsində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası qısa müddət ərzində 1 milyon 600 min manatdan çox vəsait xərcləmişdir. İndiyədək 17 mindən artıq aztəminatlı ailəyə ərzaq yardımları göstərilmişdir. Bu məqsədlər üçün 631 min 600 manat məbləğində vəsait xərclənmiş, eləcə də 148 min manat dəyərində qoruyucu vasitələr alınıb paylanılmışdır. Bundan əlavə, Həmkarlar ittifaqları Koronavirusla Mübarizəyə Dəstək Fonduna ümumilikdə 398 min 600 manat vəsait köçürmüşlər.

Eyni zamanda AHİK-in İcraiyyə Komitəsinin qərarı ilə xüsusi yardıma və qayğıya ehtiyacı olan aztəminatlı ailələrə, təqaüdçülərə ərzaq yardımları edilir. Bu məqsədlə respublikanın 76 şəhər və rayonunda yaşayan 3900 aztəminatlı ailəyə ərzaq sovqatının paylanılması qərara alınmışdır. Ümumi həcmi 68 ton olan ərzaq sovqatları hər bir ailə üçün vacib olan gündəlik tələbat mallarından ibarətdir. Azərbaycanın bütün bölgələrini əhatə edəcək bu aksiyada yerlərdəki həmkarlar ittifaqı fəalları da iştirak edirlər.

Şübhəsiz, qeyd olunanlar lider amilinin hər bir xalqın taleyindəki müstəsna rolunu və xidmətlərini bir daha qabarıq üzə çıxarır. Ümummilli Lider Heydər Əliyevin ciddi sınaqlardan üzüağ çıxardığı Azərbaycan bu gün onun layiqli siyasi davamçısı cənab İlham Əliyevin rəhbərliyi ilə inkişafının yeni keyfiyyət mərhələsini yaşayır. Dövlət idarəetmə sistemi təkmilləşir, məmurların fəaliyyətində şəffaflıq və xalqa xidmət məramı ciddiliklə önə çəkilir.

*Son aylarda həyata keçirilən qətiyyətli və uzaqgörən addımlar pandemiya dövründə vətəndaşların maraq və mənafelərini təmin etməklə, insanlarda təhlükəsiz və parlaq gələcəyə ümidləri artırır, onlarda nikbin əhvali-ruhiyyə yaradır. Azərbaycan Prezidentinə ən böyük dəstək yenə də xalqdan, taleyini cənab İlham Əliyevə etibar etmiş ölkə vətəndaşlarından gəlir.*

**Səttar MÖHBALIYEV,**
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı***

1923 Azərbaycanın özü qədər əbədi 2020

**Bu il may ayının 10-da dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü tamam olur.**



# Müstəqil Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir

50 ildən artıqdır ki, Heydər Əliyevin adı Azərbaycan vətəndaşlarının və dünya azərbaycanlılarının qəlbində qürur və fərəh hissi yaratmış, dünya ölkələrində onu tanıyanlar və haqqında eşidənlər tərəfindən həmişə böyük sevinc və məhəbbətlə yad edilir. Heydər Əliyevə olan bu sevgi isə hər şeydən əvvəl onun öz xalqına və dövlətinə sədaqətlə xidmət etməsi ilə bağlı olmuşdur. Bu münasibətlə Ulu Öndərimiz belə demişdir: "İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezident kimi mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Ulu Öndərimiz 1969-cu ildə respublikamızın rəhbəri seçildikdən sonra məhz ötən əsrin 70-80-ci illərində Sovet imperiyasının sərt rejiminə baxmayaraq, Azərbaycanı müstəqilliyə hazırlamışdır. Bu dövrədək zəngin iqtisadi potensialının, təbii sərvətlərinin olmasına baxmayaraq, Azərbaycan İttifaq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdən birini tuturdu. Azərbaycan bütün İttifaqı ən qiymətli təbii sərvət sayılan neftlə təmin etdiyi halda, əhalinin yaşayış səviyyəsinə görə heç bir iqtisadi resursu olmayan digər respublikalardan geridə qalırdı. Ümummilli Liderimizin respublikamızda rəhbərliyə gəlməsi Azərbaycanda digər sahələrlə yanaşı, iqtisadi inkişafa da yol açmış və ölkəmiz qısa zamanda İttifaq tərkibində o zaman üçün müasir iqtisadiyyata malik respublikaya çevrilmişdi. Ümummilli Liderimiz Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycanda həyata keçirdiyi taleyüklü tədbirlərin mahiyyətini belə xarakterizə edirdi: "Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur. Məsələn, mən burada çoxlu elektrik stansiyaları tikdirdim. Məndən soruşurdular ki, bunlar sənin nəyinə lazımdır?

Mən onlara bunu nə üçün etdiyimi demirdim... Amma mən istəyirdim ki, mənim ölkəm, mənim xalqım istənilən şəraitdə müstəqil yaşaya bilsin".

Heydər Əliyevin ilk dəfə Azərbaycan Respublikasına rəhbərlik etdiyi 13 il ərzində apardığı hərtərəfli və əhatəli işlər, onun özünə və ətrafındakı rəhbər işçilərə qarşı olan tələbkarlığı, yüksək işgüzarlığı sayəsində Azərbaycanın iqtisadiyyatı möhkəmləndi, neft-maşınqayırma və kimya sənayesi, üzüm istehsalı və bir sıra digər sahələrdə İttifaqda öncül sıraya çıxdı, istehsal etdiyi rəqabətqabiliyyətli məhsulları 65 xarici ölkəyə ixrac edərək beynəlxalq aləmdə tanınmağa başladı və müstəqil inkişafın əsası qoyuldu. Bu dövrdə respublikamızda "Bakı Soyuducular", "Bakıelektroterm", "Yeni Bakı Neftayırma" və digər nəhəng zavodlar tikilib istifadəyə verildi. Emal sənayesinin inkişafı, xüsusilə kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin tikilməsi geniş vüsət aldı. Regionlarda üzüm, meyvə və tərəvəz emalı zavodlarının, çay və tütün emalı fabriklərinin, habelə ət kombinatları və süd, yun emalı zavodlarının, quşçuluq fabriklərinin və heyvandarlıq komplekslərinin tikilib istifadəyə verilməsi kənd təsərrüfatının inkişafı ilə yanaşı, respublikamızda yüngül və yeyinti sənayesinin, habelə digər sahələrin inkişafına da güclü təkan verdi. Üzüm istehsalı 2 milyon tonu ötərək respublikamız İttifaq miqyasında birinci yeri tutdu, ilk dəfə olaraq 1 milyon tondan çox pambıq istehsalına nail olundu. Azərbaycan qısa müddət ərzində iqtisadiyyatın bütün sahələrində geridə qalmış bir respublikadan İttifaq səviyyəsində öncül yerə yüksəldi, xüsusilə kənd təsərrüfatında məhsuldarlığın artırılması, kənd təsərrüfatı maşınqayırma sənayesinin, kimyalaşmanın inkişafında çox uğurlu nəticələr əldə olunaraq ölkəmizdə aqrar-sənaye kompleksi yaradıldı.

Təbii ki, müstəqil dövlətin yaradılması üçün müstəqil iqtisadiyyatın qurulması kifayət deyildi. Bunun üçün milli şüuru oyatmaq lazım idi. Ötən əsrin 70-ci illərindən başlanan milli-mədəni dirçəliş, özünüdərk, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı dövlətçilik ideyasının milli-azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsinə zəmin yaratdı. Məhz Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi ki, iqtisadiyyatın və milli-mədəni həyatımızın yüksək inkişafını gələcəkdə də davam etdirmək, müasir çağırışlara uyğun idarəetmə qabiliyyəti və savadı olan gənc kadrların hazırlanması ön plana çəkildi. Bu məqsədlə hər il yüzlərlə azərbaycanlı gənclər keçmiş SSRİ-nin ən nüfuzlu universitet və ali məktəblərində təhsil almaq imkanı qazandılar. Heydər Əliyevin Azərbaycan Respublikasına həmin dövrdə rəhbərliyi sayəsində əldə edilən nailiyyətlər hörmətli Prezidentimiz İlham Əliyevin "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında" imzaladığı Sərəncamda özünün əhatəli və çox düzgün əksini tapmışdır. Sərəncamda deyilir: "1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına inteqrasiya proseslərinin hazırkı möhkəm təməli Heydər Əliyev tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır".

Heydər Əliyevin Azərbaycan Respublikasında həyata keçirdiyi möhtəşəm quruculuq işləri, yüksək idarəçilik qabiliyyəti, dövlətçiliyi inkişaf etdirmək bacarığı və rəhbər işçi kimi böyük potensiala malik olması həmin vaxt İttifaqa rəhbərlik edənlərin diqqətini cəlb etdi və Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. O, bu vəzifədə işlədiyi müddətdə İttifaqda mövcud olan ən problemli sahələrlə dərindən məşğul olaraq həmin sahələrin inkişafını təmin edirdi. Heydər Əliyev artıq SSRİ-nin bütün bölgələrində bacarıqlı və işgüzar bir rəhbər kimi tanınaraq yüksək nüfuz sahibi idi. O, tez-tez inkişaf etmiş ölkələrdə olur, onlarla əməkdaşlıq problemlərini müzakirə edir və dünyanın siyasi elitasında hörmətlə qarşılanırdı. Heydər Əliyev Azərbaycandan kənarda olsa da həmin illərdə respublikamızda baş verən proseslərlə daim maraqlanır, problemlərin həllində kömək göstərir və respublikamızın dinamik inkişafı üçün əlindən gələni edirdi. Onun liderlik məharəti, İttifaqda və beynəlxalq aləmdə böyük nüfuzu, məhsuldar işləmək qabiliyyəti xoşniyyətli insanları sevindirir, bir çox bədxahlarda isə ona qarşı paxıllıq hissi yaradırdı. Bu paxıllığın nəticəsi idi ki, 1987-ci ildə SSRİ rəhbərliyində, xüsusilə Qorbaçov tərəfindən aparılan təqiblərə cavab olaraq Heydər Əliyev vəzifəsindən istefa verməyə məcbur oldu.

Bundan 15 gün sonra Dağlıq Qarabağın Azərbaycandan ayrılması məsələsi gündəliyə çıxarıldı. Bununla da Azərbaycanın ağrı-acılarla dolu dövrü başlandı. Azərbaycan xalqına qarşı 20 Yanvar faciəsi, Xocalı soyqırımı törədildi.

Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan naminə fəaliyyətini hakimiyyətdə olmadığı dövrlərdə də belə davam etdirmiş və ən çətin anlarda xalqının yanında olmuşdur. Xalqımızın böyük oğlu həyatını təhlükə qarşısında qoyaraq 1990-cı ilin Qanlı Yanvar faciəsini törətdiyinə görə o zaman hakimiyyətdə olan sovet rəhbərliyini və faciənin digər təşkilatçılarını kəskin ittiham etmişdi. Bu kəskin bəyanatdan sonra milli liderimiz 1990-cı il iyulun 20-də Bakıya, iki gün sonra isə doğma Naxçıvana qayıtmış və buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etmişdir.

Böyük və mənalı ömrünün Naxçıvanda keçən 3 ili ərzində görülən işlər müstəqil dövlətimizin qurulmasına yönəldilmiş strategiyanın tərkib hissəsi idi. Ulu Öndərimiz Heydər Əliyevin 1990-1993-cü illərdə Azərbaycan və Naxçıvan parlamentlərinin deputatı, Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi həm milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılması sayəsində sosial-iqtisadi inkişafa nail olunması ilə nəticələnmiş, həm də muxtar respublikanı işğal təhlükəsindən qorumuşdur. 1990-cı ilin noyabr ayında dahi şəxsiyyət Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında qəbul olunan tarixi qərarlar müstəqil Azərbaycan dövlətinin yaradılmasının əsasını qoymuşdur. Hələ Sovetlər Birliyinin mövcud olduğu bir dövrdə üçrəngli Azərbaycan bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edilməsi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması böyük cəsarət tələb edirdi. Bütün bunlar 1991-ci ildə Azərbaycanın müstəqilliyini elan etməsinə şərait yaratmışdır. Bu tarixi hadisə nəinki Azərbaycanın, eləcə də Sovetlər Birliyinin digər müttəfiq respublikalarının da müstəqillik qazanmasına yol açmışdır. 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında Heydər Əliyevin rəhbərliyi ilə yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatı tələblərinə uyğun iqtisadi model formalaşdırılırdı. Muxtar respublikanın iqtisadi problemlərinin həllinə ciddi diqqət yetirilir, blokadanın vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülür, quruculuq işləri aparılırdı. Heydər Əliyevin Naxçıvanda əldə etdiyi uğurları gözü götürməyən Xalq Cəbhəsi 1992-ci il oktyabrın 24-də Naxçıvanda silahlı çevriliş edib Heydər Əliyevi tutduğu vəzifədən devirməyə cəhd etsə də, buna nail ola bilmədi. Çünki Heydər Əliyev naxçıvanlılara sözün əsl mənasında arxa olduğundan əhali də ona arxa durmaqla yanaşı, böyük hörmət və ehtiram bəsləyərək onu müdafiə etdi. Məhz bunun sayəsində çevrilişə cəhddən cəmi bir ay sonra - 1992-ci il noyabrın 21-də Naxçıvanda yüksək səviyyədə Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı təsis konfransı keçirildi və Heydər Əliyev YAP-ın sədri seçildi.

Naxçıvanda yeni dövlət quruculuğu istiqamətində böyük işlərin getdiyi bir vaxtda Azərbaycan Respublikasına səriştəsiz rəhbərlik, getdikcə güclənən özbaşınalıq, cəbhədə yaranan gərgin vəziyyət hakimiyyətə qarşı narazılığı artırmaqla ölkədə müstəqilliyin əldən getməsinə real təhlükə yaratmışdı. Bunu görən Azərbaycan xalqı böyük dövlətçilik təcrübəsi olan, tanınmış siyasi xadim Heydər Əliyevi təkidlə ikinci dəfə Azərbaycan Respublikasına rəhbərliyə dəvət etdi. Xalq özünün sevimli oğluna etimad edir və inanırdı ki, yalnız Heydər Əliyev bu vəziyyətdən çıxış yolu tapa bilər və Azərbaycan Respublikasının müstəqilliyini qoruyub saxlaya və inkişaf etdirə bilər.

Xalqın tələbini qəbul edən Heydər Əliyev 1993-cü il iyunun 15-də ölkənin Ali qanunverici orqanının sədri seçildi və onun rəhbərliyi ilə tezliklə Ermənistanla atəşkəs əldə olundu. Məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkədə siyasi və iqtisadi sabitlik bərqərar oldu, siyasi sistemin təkmilləşməsi istiqamətində möhkəm addımlar atıldı, yeni Konstitusiya qəbul olundu. Təbii ki, bütün bunlar elə də asan başa gəlmədi. Azərbaycanın inkişafını, Heydər Əliyevin hakimiyyətdə olmasını istəməyən qüvvələr 1994 və 1995-ci illərdə dövlət çevrilişinə cəhdlər etmiş, terror aktları törətmək istəmişlər. Lakin bu hərəkətlərin qarşısı vaxtında və yüksək peşəkarlıqla alındı və ölkədə daxili sabitlik yarandı. Xarici siyasət də formalaşmağa başladı və Azərbaycan həm Rusiya, həm də ABŞ və Avropa ölkələri ilə yaxın qonşuluq, dostluq və strateji tərəfdaşlıq münasibətləri yaratmağa nail oldu.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın gələcəyini müəyyənləşdirən neft strategiyası işlənib hazırlandı və Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının işlənməsi ilə bağlı "Əsrin müqaviləsi" imzalandı. Azərbaycanın enerji resurslarını dünya bazarlarına çıxarmaq üçün Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin tikintisinə başlandı. Bütün bunlar Ümummilli Liderin özünün dediyi kimi, Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasını təmin edən mühüm addımlar idi.

Ulu Öndərimiz Heydər Əliyevin həyatının 30 ildən artıq bir dövrü Azərbaycan tarixinin parlaq səhifəsini, ölkənin dirçəliş, inkişaf mərhələsini təşkil edir. Heydər Əliyev hakimiyyətinin birinci mərhələsində (1969-1982) Azərbaycanı geridə qalmış aqrar respublikadan iqtisadiyyatı dinamik inkişaf edən qabaqcıl respublikaya çevirdi, Azərbaycanın müstəqil ölkə kimi yaşamasına möhkəm zəmin yaratdı. Görkəmli şəxsiyyət respublikamıza ikinci rəhbərliyi dövründə ölkəmizdə baş qaldırmış qardaş qırğınının tezliklə qarşısını aldı, Azərbaycan dövlətini və xalqını zamanın ən çətin sınaqlarından məharətlə çıxararaq müstəqil və müasir Azərbaycan dövlətinin qurucusu olduğunu sübut etdi. Heydər Əliyev ikinci dəfə müstəqillik əldə edən Azərbaycanı nəinki qoruyub saxladı, həm də ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmaqla onun dünyanın qabaqcıl ölkələri sırasına çıxmasını təmin etdi. Azərbaycan xalqı və Azərbaycan dövləti qarşısında misilsiz xidmətləri olan Heydər Əliyev sözün əsl mənasında dahi şəxsiyyətdir və qədirbilən xalqımız onu özünün Ümummilli Lideri elan etmişdir.

Dahilərin böyüklüyü ondadır ki, onlar hər şeyin əvvəlini bildikləri kimi, sonunu da görür və dərk edirlər. Heydər Əliyev də məhz belə dahilərdən idi.

Heydər Əliyevin 2003-cü il 1 oktyabr tarixində doğma xalqına ünvanladığı son müraciəti vətənə ləyaqətlə xidmətin bariz nümunəsi idi. "Üzümü sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

*Ulu Öndərin bu tarixi müraciətindən keçən on yeddi il onun dediklərinin reallıqla dərindən uzlaşdığını və söylədiyi fikirlərin yüksək dərəcədə həqiqət olduğunu bir daha göstərdi. Keçən dövr ərzində dörd dəfə Azərbaycan xalqının əksəriyyətinin böyük dəstəyini qazanaraq Prezident seçilən İlham Əliyev Ümummilli Liderin layiqli varisi olduğunu və Azərbaycan Respublikasını gündən-günə daha yaxşı gələcəyə apardığını sübut etdi.*

**Eldar İBRAHİMOV,**
***Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin İntizam komissiyasının sədri, iqtisad üzrə elmlər doktoru, professor***

# Dövlətə və xalqa həsr olunan ömür

Tarix boyu dövlətlərin və xalqların əldə etdikləri nailiyyətlərdə siyasi liderlərin əvəzolunmaz xidmətləri olmuşdur. Yalnız hər kəs tərəfindən qəbul edilən və sevilən güclü siyasi lideri olan xalqlar öz gələcək talelərini doğru-düzgün müəyyən etmiş, dövlətçiliklərini yaşada bilmişlər. Müasir Azərbycan dövlətinin qurucusu olan Heydər Əliyev XX əsrdə xalqımızın taleyində müstəsna rolu olan belə tarixi şəxsiyyətdir. Heydər Əliyevin ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq unudulmaz tarixdir. Rəhbərlikdə olduğu 34 il müddətində Ulu Öndər daim öz xalqının və dövlətinin mənafeyi uğrunda əzmlə mübarizə aparmışdır.

Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında tarixi xidmətləri 1969-cu ilin yayından başlayır. Mənim ali məktəbə daxil olduğum həmin il Ulu Öndər respublikamızın birinci katibi seçilmişdi. Bu hadisə ölkənin hər yerində güclü ruh yüksəkliyinə səbəb olmuş, cəmiyyət həyatının bütün sahələrində sanki bir canlanma yaranmışdı. Bu da səbəbsiz deyildi. Çünki o dövrdə zəngin yeraltı və yerüstü sərvətlərinə, iqtisadi və aqrar potensialına baxmayraq, Azərbaycan ittifaq miqyasında inkişaf baxımından çox geri qalırdı, iqtisadiyyatda vəziyyət ürəkaçan deyildi. Hətta yalnız dotasiya ilə yaşayan ittifaq ölkələri də bizdən çox qabağa getmişdilər.

O dövrdə Ulu Öndər geniş kütlə tərəfindən yaxından tanınmasa da, tezliklə hər kəs Azərbaycana yeni fəaliyyət metodlarına malik rəhbərin gəldiyinin şahidinə çevrildi. Bütün bunlar isə çox sadə formada baş verirdi. Bu sadəliyin arxasında böyük təfəkkürün və baş verəcək dəyişikliklərin dayandığına heç kəs şübhə etmirdi. Heydər Əliyev çox gözəl bilirdi ki, respublikanın gələcək inkişafında əsas strateji amil iqtisadiyatın dirçəldilməsidir. Məhz Heydər Əliyevin işgüzarlığı, təşəbbüsləri və tələbkarlığı ilə respublikada həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində tezliklə Azərbaycanın taleyində və tarixində müsbətə doğru dönüş başlandı. İqtisadiyyatın bütün sahələrində vüsətli dəyişikliklər baş verdi və ölkəmiz SSRİ-nin tərkibində o dövr üçün yüksək iqtisadi göstəricilərə malik olan respublikaya çevrildi. Məhz Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri Azərbaycanda inşa olundu. Böyük strateqin təkidi ilə keçmiş ittifaq rəhbərliyi respublikamızda bir sıra iri müasir maşınqayırma, kimya, neft-kimyası, elektron sənayesi, əlvan və qara metallurgiya, toxuculuq, yeyinti, emal müəssisələrinin tikintisinə razılıq verdi, paralel olaraq energetika və nəqliyyat kompleksi inkişaf etdirildi.

Beləliklə, Heydər Əliyev sayəsində Azərbaycan ittifaq respublikaları arasında öz layiqli yerini tapdı. Bununla həm də respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası da formalaşdırıldı. Belə ki, müstəqil Azərbaycanın sosial-iqtisadi bünövrəsi məhz ötən əsrin 70-80-ci illərində qoyuldu və ölkəmizin gələcəyi üçün möhkəm təməl yaradıldı. Həmin illərdə Bakıda, Sumqayıtda, Gəncədə və digər şəhərlərdə inşa olunan müəssisələr bugünün özündə də iqtisadiyyatın güclü sənaye kompleksinin formalaşmasına zəmin yaradan möhkəm təməldir.

Ölkə iqtisadiyyatının əsas hissəsini təşkil edən kənd təsərrüfatı da o illərdə sürətlə inkişaf etdirildi. Əkinçiliyin ayrı-ayrı sahələri - pambıqçılıq, taxılçılıq, üzümçülük, tütünçülük, bağçılıq, bostan və tərəvəz, eləcə də heyvandarlıq məhsullarının istehsalı 1982-ci ildə 1969-cü illə müqayisədə dəfələrlə artmışdı.

Azərbaycanda ötən əsrin 70-ci illərində tikinti, abadlıq işləri də geniş vüsət almışdı. Hər yerdə, elə indiki günlərdə olduğu kimi, böyük sürətlə tikinti işləri aparılırdı. Bu fikrin hansı gerçəkliyi əks etdirdiyini rəqəmlər də təsdiq edir. Belə ki, 1970-1985-ci illərdə ölkədə ümumi sahəsi 22,2 milyon kvadratmetr olan mənzillər tikilmişdi. Bakıda yeni yaşayış massivləri salınmışdı. Çöl-biyabanı xatırladan ərazilərdə planlı şəkildə 5 və 9 mərtəbəli yaşayış evləri ucaldılır, mikrorayonlar salınırdı. Əhmədli, Yeni Günəşli, Yeni Yasamal yaşayış massivlərinə məhz həmin dövrdə rəvac verildi və on minlərlə insan rahat, yaraşıqlı, hər cür kommunal şəraiti olan mənzillərdə yaşamağa başladı.

Heydər Əliyevin təşəbbüsləri ilə sovet dövründə xalqımızın milli mənlik şüurunun inkişafına güclü təkan verən tədbirlər həyata keçirildi. Ona görə təkcə sosial-iqtisadi yüksəliş deyil, o dövrdə milli-mənəvi dəyərlərə qayıdış da Heydər Əliyevin adı ilə bağlı idi. Sovet ideologiyasının hakim kəsildiyi bir zamanda Heydər Əliyev xalqımızın mənəvi dəyərlərinin əriyib itməməsi üçün əlindən gələni etdi. Bu mənada Heydər Əliyevin sovet illərində ölkəmizə rəhbərliyini Azərbaycanın milli intibah dövrü kimi də səciyyələndirmək olar. Sözün əsil mənasında o illərdə Azərbaycan xalqı özünü tapdı. Manqurtlaşmaqdan, başqa mədəniyyətlərin təsirinə düşməkdən xilas oldu, mənəvi dəyərlərimiz özümüzə qaytarıldı. Təbii ki, Heydər Əliyevin sayəsində. O zamanlar milli düşüncə sahibi olduqlarına görə təqib edilən ziyalıları da müdafiə etməyi qanı, canı, bütöv ruhu ilə milli köklərə bağlı olan Heydər Əliyev üzərinə götürə bilərdi.

Tarixi proseslərin sonrakı gedişi sübut etdi ki, Heydər Əliyevin 1969-1982-ci illərdə gördüyü işlər gələcəkdə milli dövlətçilik ideyalarının hərəkətverici qüvvəyə çevrilməsi və cəmiyyətin bu ideya ətrafında səfərbər olması üçün şərait yaratdı. Həmin dövrdə respublikada bərqərar edilən əsl işgüzarlıq mühiti, sosial ədalətə əsaslanan sağlam mənəvi-psixoloji ab-hava iqtisadi tərəqqinin yüksək həddə çatmasına, Azərbaycanın keçmiş ittifaq miqyasında nüfuz qazanmasına, eləcə də beynəlxalq səviyyədə daha yaxından tanınmasına imkan verdi.

Həlledici məqamlarda xalqı üzləşdiyi çətinliklərdən xilas etmək qüdrətli şəxsiyyətlərin çiyninə düşür. Ölkənin, xalqın taleyində siyasi liderin rolu və tarixi missiyası da bununla müəyyən olunur. Bu mənada siyasi müdrikliyi, uzaqgörənliyi, dərin məntiqi, möhkəm polad iradəsi ilə fərqlənən Heydər Əliyevin simasında Tanrı xalqımıza XX əsrdə əsl xilaskar bəxş etmişdir. Müstəqilliyimizin ilk illərində ölkədə baş verən hadisələr hamımızın yaxşı xatirindədir. O ağır günlərdə hər kəsi yalnız bir sual düşündürürdü: dövləti kimə etibar etmək olar? Qərar isə yekdil oldu! Xalq özünün sədaqətli oğlunun, görkəmli dövlət xadimi və dünya şöhrətli siyasətçi Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıtmasını təkidlə tələb etdi. Heç zaman öz seçimində yanılmayan xalq Azərbaycanın xilasını, xaos və anarxiyadan qurtuluşunu, müstəqilliyinin qorunmasını və əbədiliyə çevrilməsini məhz onun fəaliyyətində gördü.

Ulu Öndər xalqın arzu və çağırışına biganə qalmadı və tarixi vəzifəsini gerçəkləşdirməkdən ötrü Bakıya gəldi, xilaskarlıq missiyasını müdrikliklə, yenilməz iradə, qətiyyət və böyük uzaqgörənliklə yerinə yetirdi. Əgər həmin məqamda Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycan adlı dövlət dünya xəritəsindən silinə bilərdi. Heydər Əliyev ölkəni gözləyən bütün təhlükələri dəf etməklə müstəqilliyimizin əbədi olmasını təmin etdi, müasir Azərbaycan dövlətinin banisinə çevrildi.

Böyük və güclü şəxsiyyətlər cəmiyyətdə, o cümlədən geosiyasi arenada baş verən hadisələrə çox ciddi təsir göstərir. Onların dünyagörüşü, uzaqgörənliyi, analitik düşüncə tərzindən irəli gələn həyat təcrübəsi və siyasi iradəsi hər hansı bir ölkənin inkişaf strategiyasının xüsusiyyətlərini müəyyənləşdirməklə, gələcək üçün düzgün yol seçimini formalaşdırır. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlişi və ondan sonra ölkədə baş verən pozitiv yeniliklər bunu təsdiq edir. Təkcə onu demək kifayət edir ki, Ümummilli Liderin bu nadir keyfiyyətləri sayəsində həmin mürəkkəb geosiyasi dövrdə ölkə vətəndaş qarşıdurması və hərcmərclikdən sonra dərin iqtisadi və sosial-siyasi böhran vəziyyətindən də çıxarıldı, inkişafın təməli qoyuldu. Heydər Əliyev respublikamızın qüdrətlənməsinə, sosial rifahın yaxşılaşmasına xidmət edən dövlət quruculuğu xəttini böyük ardıcıllıqla həyata keçirdi. Azərbaycan tezliklə dünyanın sayılıb, seçilən ölkələrindən birinə çevrildi.

Aradan ötən illər bizə Heydər Əliyevin müəllifliyi ilə yaranan Azərbaycan tarixinin əzəmətini, möhtəşəmliyini tam mahiyyəti ilə anlamaq, Ulu Öndər fenomeninin milli dövlətçilik qarşısındakı əvəzsiz xidmətlərini mahiyyəti üzrə daha dərindən dərk etmək imkanı verir. Heydər Əliyevin istər sovet illərində, istərsə də müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə xalqın intizarında olduğu arzular, niyyətlər, məramlar gerçəyə çevrilmiş, yeni milli dövlətçilik ənənələri formalaşmışdır.

Heydər Əliyev yolunun uğurla davam etdirilməsinin nəticəsi olaraq ötən 17 ildə Azərbaycanın dövləti müstəqilliyi daha da möhkəmləndirilmiş, ölkədə tarazlı və davamlı inkişaf təmin edilmişdir. Əldə edilən uğurlar nəticəsində respublikamız beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilmişdir. Heydər Əliyevin layiqli siyasi davamçısı kimi Prezident İlham Əliyev bütün sahələrdə ölkəmizin inkişafına nail olmaqla Ulu Öndərin arzularını reallığa çevirmişdir. Ötən 17 ilin statistikasına nəzər salsaq, qürur doğuran nailiyyətlərin qazanıldığını görərik. Ən mühüm uğurlarımızın sırasında Azərbaycanda ümumi daxili məhsul istehsalının 3,3 dəfə artımını xüsusi qeyd etməliyik. Və elə ÜDM-nin tərkib hissəsi olaraq ölkənin sənaye potensialı 2,6 dəfə çoxalıb ki, bu da ölkənin keçdiyi nümunəvi inkişaf yolunun mühüm göstəricisidir. Valyuta ehtiyatlarımızın bu dövrdə 50 milyard dollara çatması, iqtisadiyyata 270 milyard dollar sərmayənin yatırılması keçdiyimiz inkişaf yolunun ayrı-ayrı səhifələridir. Bu, ümumiyyətlə, analoqu olmayan yüksəliş nümunəsidir. Bu qısa dövrdə Azərbaycan bir neçə onilliyə bərabər inkişaf yolu keçib.

Bu gün Azərbaycan kosmik klubun üzvü, Bakı isə beynəlxalq tədbirlər mərkəzidir. Prezident İlham Əliyev yeni enerji və nəqliyyat layihələrinin həyata keçirilməsini təmin etməklə ölkəmizin dünyada və regionda mövqelərini daha da gücləndirmişdir. Təsadüfi deyil ki, malik olduğu iqtisadi potensialla Azərbaycan Cənubi Qafqazın aparıcı dövləti statusunu daşıyır.

Beləliklə, Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi və müasir dövrdə Prezident İlham Əliyev tərəfindən ardıcıllıqla həyata keçirilən siyasi xəttin tam düzgünlüyü dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi, ölkəmizin iqtisadi tərəqqisi və dünya birliyində öz layiqli yerini tutması ilə real təsdiqini tapmışdır. Cənab İlham Əliyevin təşəbbüsləri nəticəsində reallaşan layihələr sayəsində Azərbaycan öz iqtisadi nəticələri ilə aparıcı dövlətlər sırasındadır.

Bu gün hər birimizin qarşısında duran mühüm vəzifələrdən birincisi, vətəndaşlıq mövqeyindən çıxış etmək, ölkəmizin daha da qüdrətlənməsi üçün çalışmaq və Prezident İlham Əliyevin siyasi kursuna dəstək verməkdir. Bu şərəfli vəzifələr naminə əlindən gələni əsirgəməmək hər birimizin borcudur. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın həyata keçirdiyi fəaliyyət hər kəs üçün nümunədir. Ona görə də Mehriban Əliyevanın gördüyü işlər hər bir vətəndaş tərəfindən dərin məmnuniyyət hissilə qarşılanır. Bu fəaliyyət hər addımda Ulu Öndər Heydər Əliyevin xalqımızın işıqla gələcəyinə yönəlmiş ideallarının reallaşmasına, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi, sosial-iqtisadi, mədəni-humanitar kursun dəstəklənməsinə və uğur qazanmasına xidmət edir.

*Azərbaycan bu gün öz yüksəlişinin yeni mərhələsini yaşayır. Aparılan islahatlar cəmiyyət həyatının bütün sahələrində tərəqqini təmin edir. Dövlətimiz öz nailiyyətləri ilə regionun lideri, dünyanın qabaqcılları sırasındadır. Qazandığımız hər bir uğur həm də onu təsdiq edir ki, alternativi olmayan Heydər Əliyev siyasi xəttinin davam etdirilməsi Azərbaycanın bugünkü və gələcək inkişafının yeganə etibarlı təminatıdır.*

**Eldar QULİYEV,**
***Milli Məclisin deputatı***

# Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, aşağıdakı hakimlər birinci instansiya məhkəmələrinin hakimləri və sədrləri təyin edilsinlər:

**inzibati məhkəmələr üzrə:**

Araz Firidun oğlu Hüseynov Bakı İnzibati Məhkəməsinin sədri təyin edilsin;

Zəfər Arif oğlu Quliyev Göyçay Rayon Məhkəməsinin hakimi və sədri vəzifəsindən azad edilərək Gəncə İnzibati Məhkəməsinin hakimi və sədri təyin edilsin;

İmran Ramazan oğlu Burcayev Bakı Kommersiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt İnzibati Məhkəməsinin hakimi və sədri təyin edilsin;

Fehruz Novruz oğlu Abbasov Şirvan İnzibati Məhkəməsinin hakimi və sədri təyin edilsin;

Vidadi Kamal oğlu Qasımov Şəki İnzibati Məhkəməsinin sədri təyin edilsin;

**kommersiya məhkəmələri üzrə:**

İlham Bayram oğlu Əhmədov Bakı Kommersiya Məhkəməsinin hakimi və sədri təyin edilsin;

Rəşad Seylan oğlu Məmmədov Gəncə Kommersiya Məhkəməsinin sədri təyin edilsin;

Xəqani Qəhrəman oğlu Tağıyev Sumqayıt Kommersiya Məhkəməsinin sədri təyin edilsin;

Namidar Əlöysət oğlu Misirzadə Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Şirvan Kommersiya Məhkəməsinin hakimi və sədri təyin edilsin;

Mübariz Rahil oğlu Hüseynov Şəki Kommersiya Məhkəməsinin hakimi və sədri təyin edilsin;

**ağır cinayətlər məhkəmələri üzrə:**

Rəşad Şəmşir oğlu Əliyev Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi və sədri təyin edilsin;

**hərbi məhkəmələr üzrə:**

Aslan Kalbalı oğlu Kalbalıyev Bakı Hərbi Məhkəməsinin hakimi təyin edilsin;

**rayon (şəhər) məhkəmələri üzrə:**

Zamin Vəliyəddin oğlu İbrahimov Astara Rayon Məhkəməsinin sədri təyin edilsin;

İsmayıl Xudaverdi oğlu Abdurəhmanlı Goranboy Rayon Məhkəməsinin sədri təyin edilsin;

Nemət Əlimusa oğlu Musayev Qazax Rayon Məhkəməsinin sədri təyin edilsin;

Vladimir Yefimoviç Ruvinov Xaçmaz Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Qubadlı Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

Rəşad Rafiq oğlu Mustafayev Bakı şəhəri Pirallahı Rayon Məhkəməsinin hakimi və sədri vəzifəsindən azad edilərək Sumqayıt Şəhər Məhkəməsinin hakimi və sədri təyin edilsin.

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 112-ci maddələrinə uyğun olaraq aşağıdakı hakimlərin vəzifələri dəyişdirilsin:

Rafiq Rəşid oğlu Məmmədov Göygöl Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Ağdam Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Seyfəli İzzət oğlu Seyfullayev Bərdə Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Beyləqan Rayon Məhkəməsinin hakimi təyin edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2020-ci il*

# Milli Məclisin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib



**Mayın 6-da Milli Məclisin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bugünkü iclasın Prezidentin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə təqdim olunmuş İnzibati Xətalar Məcəlləsinə (üçüncü oxunuş) və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" qanunlara (üçüncü oxunuş) təklif olunan dəyişikliklərlə bağlı ictimai müzakirələrə həsr olunduğunu bildirib.

Qeyd olunub ki, dəyişiklik zərurəti Azərbaycanın dövlət dilinin tətbiqinə nəzarətin və dil normalarının qorunmasının təmin edilməsinin vacibliyindən irəli gəlir. Məqsəd Azərbaycan dilinin hüquqi statusunun qorunması, bu dilin işlənməsi və inkişafı üçün zəruri tədbirlərin görülməsidir. Həmçinin televiziya və radioda, KİV-də, internet resurslarında, reklam daşıyıcılarında ədəbi dilin normalarının və leksik-qrammatik qaydaların pozulması hallarının, əcnəbi söz və ifadələrin işlədilməsinin qarşısını almaqdır. Layihəyə əsasən, adıçəkilən 5 qanunun müvafiq maddələrində bu qəbildən dəyişikliklər aparılır və bu dəyişikliklərdən irəli gələn məsuliyyət İnzibati Xətalar Məcəlləsində nəzərə alınacaq.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 1 noyabr tarixli Prezident fərmanı Azərbaycan dilinin hüquqi statusunun qorunmasıyla bağlı mühüm vəzifələr qoyub. Təklif edilən dəyişikliklər məhz bu fərmanın icrası ilə əlaqədardır və ölkəmizdə dövlət dilinin saflığının qorunmasına xidmət edəcək. Qeyd olundu ki, dəyişikliklər birinci və ikinci oxunuşda Milli Məclisin iclasında ətraflı müzakirə olunub, deputatlar dəyişikliklərin mahiyyəti barədə fikirlərini bildiriblər, irad və təkliflər səslənib.

İctimai müzakirələr zamanı deputatlar Hikmət Məmmədov, Erkin Qədirli, Nizami Cəfərov, Nurlan Həsənov, Nigar Arpadarai, Fəzail Ağamali, Fazil Mustafa, Tahir Kərimli, Kamal Cəfərov, Arzu Nağıyev, Elşən Musayev, Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Mirhəşim Seyidzadə sənədlərlə bağlı fikirlərini açıqlayıblar.

İclasda AMEA Nəsimi adına Dilçilik İnstitutundan dəvət edilən mütəxəssislər və reklam şirkətlərinin nümayəndələri deputatların səsləndirdikləri fikirlərə münasibət bildiriblər, reklam lövhələrində və videoçarxlarda Azərbaycan dili normalarının pozulması hallarının yolverilməz olduğunu vurğulayıblar.

# Apelyasiya məhkəmələrinin məhkəmə kollegiyaları sədrlərinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. Aşağıdakı hakimlər apellyasiya məhkəmələrinin məhkəmə kollegiyalarının sədrləri təyin edilsinlər:

**Bakı Apelyasiya Məhkəməsi üzrə:**

Rəhimov Elmar Eldar oğlu - Cinayət Kollegiyasının sədri
Tağızadə Mirzə Nəsib oğlu - İnzibati Kollegiyanın sədri
Qurbanov Raqib Əliddin oğlu - Kommersiya Kollegiyasının sədri

**Gəncə Apelyasiya Məhkəməsi üzrə:**

Mamedov Rəşad Ziyaviddin oğlu - İnzibati Kollegiyanın sədri
Rzaquliyev Şamil Qəhrəman oğlu - Kommersiya Kollegiyasının sədri

**Sumqayıt Apelyasiya Məhkəməsi üzrə:**

Babayeva Hökümə Çingiz qızı - İnzibati Kollegiyanın sədri
Quliyev Telman Osman oğlu - Mülki Kollegiyanın sədri

**Şirvan Apelyasiya Məhkəməsi üzrə:**

Həsənov Müşfiq Kamil oğlu - İnzibati Kollegiyanın sədri
Kərimov Tale Suliddin oğlu - Kommersiya Kollegiyasının sədri

**Şəki Apelyasiya Məhkəməsi üzrə:**

Rəfiyev Rövşən Rafiq oğlu - İnzibati Kollegiyanın sədri
Hüseynov Elçin Şirin oğlu - Kommersiya Kollegiyasının sədri

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2020-ci il*

# Milli Məclisin İntizam komissiyasının iclası olub

Mayın 6-da Milli Məclisin İntizam komissiyasının iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komissiyanın sədri Eldar İbrahimov iclasda Milli Məclisin İntizam komissiyasının fəaliyyət istiqamətlərinin müzakirə olunacağını qeyd edib.

Bildirilib ki, komissiyanın səlahiyyətləri Milli Məclisin Daxili Nizamnaməsinin 41-ci maddəsində öz əksini tapıb. İntizam komissiyası öz səlahiyyətlərini intizam tədbirlərinin tətbiqi ilə parlamentdaxili məsuliyyətə cəlb etməklə həyata keçirir. Komissiyanın sədri Eldar İbrahimov diqqətə çatdırıb ki, komissiyanın fəaliyyətini daha da yaxşılaşdırmaq üçün yeni Əsasnamə hazırlanıb. Əsasnamə layihəsi hazır olanda müzakirəyə təqdim ediləcək. İclasda çıxış edən komissiyanın katibi, deputat Nurlan Həsənov bildirib ki, İntizam komissiyasının fəaliyyətini tənzimləyəcək yeni Əsasnamədə komissiyanın səlahiyyətləri, deputatın hüquq və vəzifələri, müraciətlərə baxılması qaydası və digər məsələlər öz əksini tapıb. Əsasnamə hazırlanarkən beynəlxalq təcrübədən, əsasən isə Almaniya təcrübəsindən istifadə olunub.

Sonra çıxış edən komissiya üzvləri Fəzail Ağamalı, Məlahət İbrahimqızı, Səttar Möhbalıyev, Hikmət Məmmədov, Nəsib Məhəməliyev, Nizami Səfərov, Məşhur Məmmədov, Afət Həsənova yeni Əsasnamə barədə təkliflərini veriblər, prosesin sürətləndirilməsinin vacibliyini vurğulayıblar.

Bununla da Milli Məclisin İntizam komissiyasının iclası başa çatıb.

# Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavininin və məhkəmə kollegiyaları sədrlərinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. Çingiz İsgəndər oğlu Əsgərov Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini təyin edilsin.
2. Hafiz Qənbər oğlu Nəsibov Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri təyin edilsin.
3. Xəqani Səyyad oğlu Məmmədov Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin.
4. Kəmalə Nəbi qızı Abiyeva Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin.
5. Sənan Firudin oğlu Hacıyev Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sədri təyin edilsin.
6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2020-ci il*

# Cəbhəboyu zonada tikintisi yekunlaşmaqda olan hərbi hissəyə baxış keçirilib

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Azərbaycan Ordusunun şəxsi heyətinin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində aparılan islahatlar çərçivəsində cəbhəboyu zonada tikintisi yekunlaşmaqda olan hərbi hissədə olublar. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi hissədə şəxsi heyətin yaşayışı və xidməti-döyüş tapşırıqlarının icrasını təmin etmək üçün lazımi şəraitin yaradılacağı məruzə olunub.



Yeni inşa edilən hərbi hissədə aparılan tikinti işlərinin gedişatını yoxlayan Müdafiə naziri inşaat işlərinin keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.

# Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyası və Mülki Kollegiyası sədrlərinin vəzifələrindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 12.0.4-cü bəndini nəzərə alaraq **qərara alıram:**

1. Şahin Yaşar oğlu Yusifov öz arzusu ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri vəzifəsindən azad edilsin.
2. Şəlalə Ağakərim qızı Məmmədova öz arzusu ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sədri vəzifəsindən azad edilsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2020-ci il*

# V.F.Hacıyevin İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Vilyam Fərhalı oğlu Hacıyev İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2020-ci il*

# Leyla ABDULLAYEVA: Minnesota Ştat Senatının qətnaməsi kimi təqdim edilən kağız Senatda baxılmayan simvolik sənəddir

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva mayın 5-də ABŞ-ın Minnesota Ştat Senatı tərəfindən Azərbaycanın işğal edilmiş torpaqlarında yaradılmış qondarma qurumun "tanınması" qətnaməsinin qəbulu ilə bağlı erməni mətbuatında yayılan məlumatlara münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, məsələ ilə bağlı yerli KİV-in sualını cavablandıran Leyla Abdullayeva deyib: "ABŞ-ın Minnesota Ştat Senatının qətnaməsi kimi təqdim edilən və üzərində senator Meri Kiffmeyer, Senatın katibi və Senatın Qaydalar və Administrasiya Komitəsinin sədrinin imzalarının yer aldığı bu kağız Senat ofisinin məlumatında da təqdim edildiyi kimi, senator M.Kiffmeyerin şəxsi bəyanatıdır və simvolik bir jest xarakteri daşıyır. Senatın istənilən üzvü tərəfindən bəyan edilə bilən bu kimi kağızın qəbulu üçün hər hansı səsvermə tələb olunmur, yəni bu kağız Ştat tərəfindən rəsmi qətnamə kimi qəbul olunmur.

Göründüyü kimi, ölkəmizin işğal olunmuş ərazilərindəki qondarma qurumun Minnesota Senatı tərəfindən guya ki, "tanınması" kimi təqdim edilən kağız, əslində, Senatda baxılmayan və səsverməyə çıxarılmadan senatorun imzası ilə verilmiş simvolik sənəddir.

Ümumiyyətlə isə vurğulamaq istərdim ki, hər hansı bir qurumun "dövlət" kimi tanınması, ştat qanunverici orqanının səlahiyyətləri xaricindədir. Amerika Birləşmiş Ştatlarının federal səviyyədə mövqeyinə gəldikdə isə, bu mövqe bəllidir. ABŞ Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünü dəstəkləyir.

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 6 may tarixli sərəncamına əlavə*

## Quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı

| Sıra sayı | Tədbirin adı | Ayrılan vəsait |
|---|---|---|
| 1. | Ağdam rayonunda 9 nömrəli, 56 şagird yerlik modul tipli köçkün tam orta məktəbinin quraşdırılması | 283 000 |
| 2. | Ağsu rayonunun Bozavand kəndində 56 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 283 000 |
| 3. | Ağsu rayonunun Gursulu kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 350 000 |
| 4. | Astara rayonunun Şəvqo kəndində 40 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 256 000 |
| 5. | Astara rayonunun Xıçaso kəndində 40 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 256 000 |
| 6. | Bərdə rayonunun Mollaisalar kəndində 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 382 000 |
| 7. | Cəlilabad rayonunun Badamağac kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 207 000 |
| 8. | Cəlilabad rayonunun Qarğılı kəndində 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 256 000 |
| 9. | Cəlilabad rayonunun Əliabad kəndində 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 382 000 |
| 10. | Füzuli rayonunda 17 nömrəli, 96 şagird yerlik modul tipli köçkün tam orta məktəbinin quraşdırılması | 382 000 |
| 11. | Gədəbəy rayonunun Əlinağılar kəndində 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 382 000 |
| 12. | Xaçmaz rayonunun Tikanlıoba kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 207 000 |
| 13. | Xaçmaz rayonunun Qədimalıqışlaq kəndində 56 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 283 000 |
| 14. | Xaçmaz rayonunun Əbilyataq kəndində 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 350 000 |
| 15. | İsmayıllı rayonunun Maçaxı kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 207 000 |
| 16. | Kəlbəcər rayonunda 96 nömrəli, 40 şagird yerlik modul tipli köçkün ümumi orta məktəbinin quraşdırılması | 256 000 |
| 17. | Quba rayonunun Xaspolad kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 207 000 |
| 18. | Quba rayonunun Haput kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 207 000 |
| 19. | Quba rayonunun Künxırt kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 207 000 |
| 20. | Quba rayonunun Gömürdəhnə kəndində 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 283 000 |
| 21. | Quba rayonunun Utuq kəndində 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 382 000 |
| 22. | Laçın rayonunun Nağdalı kəndində 80 şagird yerlik modul tipli köçkün tam orta məktəbinin quraşdırılması | 350 000 |
| 23. | Laçın rayonunun Əfətli kəndində 40 şagird yerlik modul tipli köçkün ümumi orta məktəbinin quraşdırılması | 256 000 |
| 24. | Lerik rayonunun Xanagah kəndində 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 382 000 |
| 25. | Lerik rayonunun Davidoni kəndində 20 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 207 000 |
| 26. | Lerik rayonunun Yuxarı Veri kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 350 000 |
| 27. | Lerik rayonunun Brkandul kəndində 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 382 000 |
| 28. | Neftçala rayonunun Yenikənd kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 207 000 |
| 29. | Şamaxı rayonunun Qoleybuğurd kəndində 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 382 000 |
| 30. | Şəki rayonunun Qaradağlı kəndində 20 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 207 000 |
| 31. | Şəki rayonunun Təpəcənnət kəndində 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 283 000 |
| 32. | Tovuz rayonunun Şıxheybət kəndində 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 283 000 |
| 33. | Tovuz rayonunun Göyəbaxan kəndində 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 283 000 |
| 34. | Zəngilan rayonunda 9 nömrəli, 132 şagird yerlik modul tipli köçkün tam orta məktəbinin quraşdırılması | 420 000 |
| | **Cəmi:** | **10 000 000** |

# XİN: Paşinyan bəyanatı ilə bölgədə sülhün təmin olunmasına məhz Ermənistanın əngəl törətdiyini etiraf edir

Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistanın baş naziri Nikol Paşinyanın parlamentdə çıxışı zamanı münaqişənin həlli ilə bağlı mövqeyinin 2018-ci ildən bəri zərrə qədər də dəyişilmədiyi barədə bəyanatına münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı KİV-in sualını cavablandıran Leyla Abdullayeva deyib: "Bu bəyanatı ilə Ermənistan baş naziri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə və beləliklə də, bölgədə sülhün və təhlükəsizliyin təmin olunmasına məhz Ermənistanın əngəl törətdiyini etiraf etmiş olur. Bu bəyanat kimin danışıqlardan imtina etdiyini, kimin beynəlxalq ictimaiyyətin, ilk növbədə isə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərini yerinə yetirməkdən imtina etdiyini, beləliklə də, kimin münaqişənin tənzimlənməsinə maneə olduğunu açıq şəkildə göstərir.

Ermənistan rəhbərliyi bu açıqlamaların münaqişənin danışıqlar yolu ilə tənzimlənməsinə heç də xidmət etmədiyini anlamalı və nəhayət, dərk etməlidir ki, Azərbaycan öz Konstitusiyasına və beynəlxalq hüququn norma və prinsiplərinə istinadən beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü bərpa edəcək. Münaqişənin həlli çərçivəsində yarana biləcək hər hansı gərginliyin məsuliyyəti isə Ermənistan tərəfinin üzərindədir".

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

## Gənclər Prezidentə sədaqətlidirlər

### YAP Yasamal Gənclər Birliyinin bir qrup fəalının dövlət başçısına ünvanladığı məktublar da bunu təsdiqləyir



Bu baharı xalqımız da bütün dünyada olduğu kimi, koronavirusla mübarizə şəraitində qarşıladı. Mart-aprel aylarında keçirdiyimiz həyəcanlar arxada qaldı. Bu da Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqa dərin məhəbbətinin, dövlətə sədaqətinin bariz nümunəsi deməkdir.

Mütəxəssislərin gəldiyi qənaətə görə, özünütəcrid, "evdə qal!" kampaniyası hələ bir müddət davam etdirilməlidir. Yaşı 65-dən yuxarı olan vətəndaşlarla bağlı xəbərdarlıqlar yaddan çıxarılmamalıdır. Çünki onların bu virusa yoluxma riski daha çoxdur. Xüsusi karantin rejimindəki mövcud məhdudiyyətlər sanitar-epidemioloji şəraitdən asılı olaraq, mərhələli şəkildə yumşaldılmalıdır. Əlbəttə, epidemioloji vəziyyət tələb edərsə, yəni xəstəliyin dinamikasında artım olarsa, karantin rejimi yenidən sərtləşdirilə, müvafiq məhdudiyyətlər tətbiq oluna bilər.

Məhz buna görə də hazırda hər şey virusa yoluxmaya qarşı mübarizədə insanların davranışından, yəni müəyyən edilən qaydalara əməl etməsindən asılıdır. Məhdudiyyətlər götürülsə belə insanlar profilaktik tədbirlərə, sanitar normalara uyğun davranmasa, yoluxma halları yenidən arta bilər.

### Ölkədə dövlətçiliyə sədaqətli, yüksək intellektli gənc nəsil formalaşır

Məhdudiyyətlərin bir qismi aradan qaldırılsa da, virusa yoluxma sürətinin qarşısını almaq üçün ölkədə kütləvi tədbirlərin keçirilməsinin hələ bir müddət təxirə salınması da vacib hesab edilən məsələlərdəndir. İnsanlar hələ ki, "2 metrlik məsafə saxla" tələbinə əməl etməlidirlər. Bütün bunlar, təbii ki, kampaniyanın növbəti mərhələsinə keçidlə bağlıdır. Əsas məsələ xəstəliyin yeni dalğasına yol verməmək üçün bütün tələblərə, o cümlədən şəxsi gigiyena, özünütəcrid, kütləvi toplantılara yol verilməməsi, ara məsafənin saxlanması və s. qaydalara riayət olunmasıdır.

YAP Yasamal Rayon Təşkilatı Gənclər Birliyi fəallarının Azərbaycan Prezidentinin elektron poçtuna ünvanladıqları məktublardan da görmək olar ki, ölkədə dövlət başçısının həyata keçirdiyi sosial siyasət xalq-hakimiyyət birliyini hansısa bir epidemiya, yaxud pandemiyaya görə sarsıda bilməz.

**Fuad Həbibzadə** məktubunda yazır: "Hörmətli cənab Prezident! Mən bir gənc olaraq çox sevinirəm ki, Azərbaycana Sizin kimi uzaqgörən siyasi xadim rəhbərlik edir. Bildiyimiz kimi, gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Eyni zamanda daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir. Sağlam gənclik sağlam nəsil deməkdir. Sizin rəhbərliyinizlə ölkəmizdə gənclərin aparıcı qüvvəyə çevrilməsi istiqamətində böyük işlər görülür, dövlətçiliyə bağlı, yüksək intellektli və geniş dünyagörüşünə malik gənc nəsil formalaşır. Hər bir Azərbaycan gənci Sizin gördüyünüz işlərin dəyərini çox yaxşı bilir və hər zaman Sizə güvənir.

Cənab Prezident, son vaxtlar dünyada geniş yayılmış koronavirus infeksiyası təəssüf ki, Azərbaycandan da yan keçmədi. Ölkəmizdə bu infeksiyanın geniş yayılmasının qarşısının alınması məqsədilə dövlət tərəfindən sistemli şəkildə addımlar atılır. Biz bu çətinliyin öhdəsindən birlikdə gələcəyimizə inanırıq. Vətəndaşların sağlamlığını düşünərək qabaqlayıcı tədbirlərin görülməsi, vəziyyətə uyğun zəruri addımların atılması, insanların sosial müdafiəsinin tam təmin olunması istiqamətində gördüyünüz bütün işlərə görə YAP Yasamal gənclərinin hər bir üzvü Sizə təşəkkür edir, çətin və şərəfli fəaliyyətinizdə uğurlar arzulayır".

### Biz bu çətinliyin öhdəsindən birlikdə gələcəyimizə inanırıq

Bütün dünyanı çənginə almış koronavirus pandemiyasının yayılmasının qarşısının alınması üçün tətbiq edilən karantin rejimində bir daha öz Prezidentinin çağırışlarına səs verərək, könüllülük prinsipi əsasında sosial yardımların göstərilməsində var qüvvələri ilə çalışan gənclər adından dövlət başçısına təşəkkür edən **Rəşadət Xalıqov** məktubunda yazır: "Hörmətli cənab Prezidentimiz, gəncliyin himayədarı və sadiq dostu möhtərəm İlham Əliyev, Sizin uzaqgörən siyasətinizin, hadisələrə real qiymət verməyinizin nəticəsidir ki, Ümumdünya Səhiyyə Təşkilatının siyahısında Azərbaycan bu xəstəlikdən ölüm sayına görə sonuncu pillələrdədir. Sizin apardığınız məqsədyönlü daxili və xarici siyasəti tam dəstəkləyir və ölkəmizin çətin dönəmində dayanmadan, yorulmadan apardığınız islahatları YAP gənclərindən biri kimi mən də alqışlayıram.

Cənab Prezident, əminik ki, Sizin ağıllı və uzaqgörən siyasətiniz, xalq-iqtidar birliyi sayəsində bu tarixi sınaqdan da uğurla çıxaraq dövlətimizin qüdrətini dünyaya bir daha sübut edəcəyik. Ulu Tanrı Sizi, ailənizi və xalqımızı qorusun".

**Nigar Abbasova** isə məktubuna belə başlayıb: "Hörmətli Cənab Prezident!

Son zamanlar dünyada yayılan koronavirus (COVID-19) pandemiyasının Azərbaycana olan təsiri nəticəsində bir çox sahələr zərərə məruz qalsa da, dövlət tərəfindən görülən bütün lazımi tədbirlər nəticəsində maksimum dərəcədə vətəndaşlarımızın sağlamlığı qorunmuşdur. Biz atılan hər bir addımda şahidi oluruq ki, Azərbaycan xalqının sosial rifahı, sağlamlığının qorunması dövlətin başlıca məqsədidir".

YAP gənclərinin fəallarından olan N.Abbasova daha sonra qeyd edir ki, bütün bunlar mart ayından bəri qəbul edilən qərarlarda, dövlət başçısı tərəfindən imzalanan sərəncamlarda öz əksini tapmışdır. Ən əsası isə bu müddət ərzində millətimiz də dövlətlə həmrəylik nümayiş etdirmiş, bir-birinə dəstək olmuşlar: "Sizin başlatdığınız Koronavirusla Mübarizəyə Dəstək Fonduna yardım kampaniyasına və digər aksiyalara Yasamal rayon gəncləri öz dəstəyini bildirir. Ümid edirik ki, bu vəziyyət tezliklə bitəcək. Sizə uğurlar arzu edirik!"

### "Cənab Prezident! Siz gəncləri daim dəstəkləmisiniz, nəsihətamiz ifadələrinizlə yolumuza işıq saçmısınız"

**Nilufər Cəfərova** da Azərbaycan Prezidentinə təşəkkür məktubu yazan gənclərdən biri və həm də YAP Yasamal Gənclər Birliyinin fəallarındandır. Karantin dövründə sosial yardımların paylanmasında könüllülərin sırasında o da xidmətini əskik etməyib. Yazır ki, hörmətli cənab Prezident, Sizin başçılığınızla respublikamızda gənclərə çox böyük qayğı göstərilir, dövlətçiliklə bağlı əzəmətli işlər görülür, onların dünyagörüşlərinin artması yolunda mühüm məsələ olan tədbirlər həyata keçirilir. İnanırıq ki, ölkəmizdə hər bir Azərbaycan gənci Sizin xalq üçün gördüyünüz işləri yüksək qiymətləndirir, Sizə güvənir və dəstəkləyir.

Bu gün xüsusi karantin rejiminin yumşaldılması ilə əlaqədar əhalidə təhlükənin sovuşması əhvali-ruhiyyəsi yaranmağa başlayıb. Lakin unudulmamalıdır ki, koronavirus pandemiyasının başlanğıc dövründə həyata keçirilən kampaniya daha intensiv şəkildə yenidən təkrarlanmalıdır. Yəni karantin rejimindəki məhdudiyyətlərin bəzisi aradan qaldırıldığı üçün əhali arasında virusa yoluxmada artım və prosesin ikinci dalğası başlaya bilər.

Onu da unutmayaq ki, COVID-19 xəstəliyi uzunmüddətli prosesdir. Bu səbəbdən mövcud qaydalara riayət olunması və zəruri profilaktik tədbirlərin davam etdirilməsi çox vacibdir. Bu məqsədlə gigiyena qaydalarına daha ciddi əməl olunmalıdır.

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

## Azərbaycan Prezidenti ölkələr arasında həmrəylik yaradır

**Bütün dünyanın Korona virus pandemiyası ilə üzləşdiyi çətin bir vaxtda təcrübəli dövlət başçısına məxsus müdrik siyasətinizi nümayiş etdirirsiniz. Pandemiyaya garşı mübarizədə Sizin təklifinizlə Qoşulmama Hərakatı Təmas grupunun video konfrans şəklində Zirvə toplantısı keçirildi.**

Keçən il Bakida qəbul edilmiş tədbirlər planına uygun olaraq təşkilatın sədri kimi irəli sürdüyünüz təşəbbüs Azərbaycanın qüdrətli ölkə oldugunu qöstərir. Ölkəmizdə pandemiyaya qarşı qabaqlayıcı və əsaslı tədbirlərin görülməsində Azərbaycanın nümunəsini Ümumdünya Səhiyyə Təşkilatı və Avropa İnkişaf Bankı kimi beynəlxalq təşkilatlar təqdir edir.

Öncə Türk dövlətləri, daha sonra Qoşulmamaq Hərəkatının Təmas qrupunu təmsil edən ölkə rəhbərləri səviyyəsində Sizin təşəbbüsünüzlə keçirilən birləşdirici tədbir dünyanın böyük bir hissəsində hazirki ümumi bəlaya qarşı mübarizədə həmin ölkələrin bir araya gəlməsində mühüm addımdır. Bu yolda Birləşmiş Millətlər Təşkilatının növbəti tədbirinin Kovid-19-a qarşı mübarizəyə həsr edilməsi haqqında təşəbbüsünüz çox əhəmiyyətlidir. BMT-nin Baş katibi, Avropa Komissiyası, Afrika Birliyinin yüksək nümayəndələri, habelə çıxış edən dövlət başçılarının Sizə ünvanladiqları minnətdarliq sözlərinə görə hər bir Azərbaycan vətəndaşı qürur hissi keçirir.

Möhtərəm Prezident, bir əsr bundan əvvəl tanınmış ədibimizin təəssüflə qeyd etdiyi sözləri - "Xalqımızın imzasının dünya xalqlarının imzaları arasında olmadığını" xatırladıqca müstəqilliyini əldə etmiş, Ulu Öndərin qurdugu və Sizin rəhbərliyinizlə inkişaf edən Azərbaycanın adını şərəfləndirməyiniz hamını sevindirir. Xalqımızın imzası nəinki dünya xalqlarının imzaları arasında var, eyni zamanda onun nüfuzlu lideri ölkələr arasında həmrəylik yaradır, təşəbbüs qöstərir, onları ümumi mübarizədə birləşdirir.

Dünya əhəmiyyətli işləri yerinə yetirməklə yanaşı Siz hər bir Azərbaycanlının Prezidenti kimi xalqımızın qayğısına qalır, onun saglamlığını qorumaq, cəmiyyətin hər bir üzvünün sosial vəziyyətini yaxşılaşdırmaq və çətinliklər şəraitində ölkəmizin davamlı iqdisadi inkişafını təmin etmək üçün böyük işlər görürsünüz.

Hörmətli Prezident, Sizin məqsədyönlü siyasətiniz nəticəsində ölkəmizdə aparılan islahatlar belə bir çətin şəraitdə də davam etdirilir. Bu islahatlar həyatın tələblərindən doğur və xalqımızın istəyinə cavab verir. İslahatlar fəaliyyətimizin bütün sahələrini əhatə edir. Sizin qətiyyətli yanaşmağınız nəticəsində idarəetmənin bütün mərhələlərində yeniliklər tətbiq edilir və bu tələblərə cavab verməyən və ya onları pozan məmurlar layiqli şəkildə cəzalandırılır.

Sizin göstərdiyiniz qayğının nəticəsidir ki, aztəminatlı ailələr, şəhid ailələri, işsizlər, ehtiyacı olan insanlar dövlət tərəfindən nəzərdə tutulan yardımlarla təmin olunurlar. Çox təəssüf ki, aramızda elə məmurlar və məsul işçilər vardır ki, onlar həmin yardımları lazım olan ünvanlara çatdırmır və ya onları mənimsəyirlər. Lakin müvafiq dövlət orqanları tərəfindən onların iç-üzü açılır, hərəkətləri ifşa olunur. Mətbuatda elan edildiyi kimi, Neftçala, Beləsuvar, Yevlax, Saatlı, Salyan, İmişli, İsmayıllı Rayon İcra Nümayəndələrinin yaramaz əməllərinin üstü açılmlş və günahkarlar vəzifələrindən azad edilməklə məsuliyyətə cəlb edilmişlər.

Hörmətli Prezident, dövlət idarə strukturlarında və cəmiyyətin bütün sahələrində məsuliyyətsizlik və əliəyriliklə mübarizədə hamı iştirak etməli, aramızdaki yaramaz ünsürlər cəzalarına çatmalıdırlar. Dəyişən və irəliyə doğru gedən ölkəmiz üçün islahatlar qaçılmazdır.

Möhtərəm Prezident, Azərbaycanımızın qüdrətinin və dünyada nüfuzunun yüksəlməsi, xalqımızın rifahının yaxşılaşdırılması yolunda fəaliyyətinizi dəstəkləyir, sıravi bir vətəndaş, ziyalı və agsaqqal səmimiyyətilə Sizə təşəkkür edirik.

*Bakı şəhəri, Nəsimi rayon Ağsaqqallar Şurası adından*
***Aydın HEYDƏROV, İmamverdi HƏMİDOV***

## Azərbaycan-Polşa münasibətlərinin inkişaf perspektivləri müzakirə olunub

**Mayın 6-da Xarici İşlər naziri Elmar Məmmədyarov ilə Polşanın Xarici İşlər naziri Yatsek Çaputoviç arasında telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər qlobal pandemiya ilə mübarizə çərçivəsində ölkələr tərəfindən həyata keçirilən tədbirlər üzrə məlumat mübadiləsi aparıb və bu xüsusda beynəlxalq həmrəyliyin əhəmiyyətini qeyd ediblər. Nazir Elmar Məmmədyarov Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü əsasında bu il mayın 4-də keçirilən Qoşulmama Hərəkatının Təmas Qrupu formatında koronavirusla mübarizəyə həsr olunmuş videokonfrans şəklində Zirvə görüşü və onun nəticələri barədə həmkarına məlumat verib.

Nazirlər ikitərəfli münasibətlərin gələcək inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıb, iki ölkə arasındakı siyasi münasibətlərin hazırkı yüksək səviyyəsini məmnunluqla qeyd ediblər. Telefon söhbəti zamanı, həmçinin Aİ-nin Şərq Tərəfdaşlığı proqramı çərçivəsində əməkdaşlıq, Şərq Tərəfdaşlığı ölkələrinin qarşıdan gələn Zirvə görüşü, eləcə də Vışeqrad Qrupu ilə Şərq Tərəfdaşlığı arasında əməkdaşlıq məsələləri müzakirə edilib.

Nazirlər, habelə beynəlxalq təşkilatlar, xüsusilə də BMT çərçivəsində əməkdaşlıq məsələlərindən bəhs ediblər. Təmasların gələcəkdə davam etdirilməsi razılaşdırılıb.

## Daha 100 min şəxsə birdəfəlik ödəniş edilib

İşsizlərdən və xüsusi karantin rejiminə görə işini itirən qeyri-formal məşğul şəxslərdən ibarət aztəminatlılardan daha 100 min aztəminatlı üçün birdəfəlik vəsait (190 manat) köçürülüb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, bununla da pandemiya ilə əlaqədar mühüm sosial dəstək proqramlarından biri olan birdəfəlik ödəmə proqramı üzrə 600 min şəxsin müəyyən edilməsi və onlara aprel ayına dair ödənişlərin olunması prosesi yekunlaşıb.

Prezident İlham Əliyevin tapşırığına əsasən birdəfəlik ödəmə proqramının əhatə dairəsi 3 dəfə artırılmaqla birdəfəlik ödəmə verilənlərin sayı 200 mindən 600 min çatdırılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aprelin 9-dan ödəniş prosesi həyata keçirilib. Onlar göndərilən SMS-lərdə göstərildiyi qaydada poçt şöbələrindən və ya bank fililallarından vəsaitlərini alıblar.

May ayına dair birdəfəlik ödənişləri isə həmin vətəndaşlar bank kartları vasitəsilə alacaqlar. Nazirliyin sifarişi ilə hazırlanan kartlar banklar tərəfindən hazırda onlara təqdim edilir.

Digər sosial müdafiə və aktiv məşğulluq tədbirlərində olduğu kimi, nazirlik bu sahədə də şəffaflıq və ictimai açıqlıq prinsipini rəhbər tutur. Bu məqsədlə, birdəfəlik ödəniş edilmiş 600 min şəxsin siyahısını da nazirlik rəsmi saytında yerləşdirib. (http://sosial.gov.az/FWsiyah%C4%B1s%C4%B1/Siyahi600.pdf)

Xatırladaq ki, ötən dövrdə, həmçinin ünvanlı dövlət sosial yardımı alanların siyahısı (http://sosial.gov.az/udssiyahi), imtiyazlı şəxslərin mənzil və fərdi ev növbəliliyi siyahısı (http://sosial.gov.az/novbeyedayananvetendashlarinsiyahisi), imtiyazlı şəxslərin avtomobil növbəliliyi siyahısı (http://sosial.gov.az/avtomobilleteminat), mənzillə təmin edilənlərin siyahısı (http://sosial.gov.az/menzilleteminat), avtomobillə təmin edilənlərin siyahısı (http://sosial.gov.az/avtomobilleteminat), ödənişli ictimai işlərə cəlb edilənlərin siyahısı (http://sosial.gov.az/list-of-persons-involved-in-social-work) da nazirliyin saytında yerləşdirilib.

Eyni zamanda, özünüməşğulluq proqramına cəlb edilənlər və onlara təqdim edilmiş aktivlər, aktivlərin təhvil verilməsini əks etdirən rəsmi sənədlər (skan edilmiş formada), foto və videomateriallar da saytda (https://mas.mlspp.gov.az/selfemployment/) yer alıb.

## Türk Şurasının İqtisadiyyat nazirlərinin videokonfrans formatında görüşü keçirilib

**Mayın 6-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Türk Şurası) üzv və müşahidəçi ölkələrin İqtisadiyyat nazirləri və gömrük xidməti rəhbərlərinin videokonfrans formatında müzakirələri təşkil edilib.**



İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, videokonfransın məqsədi aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və sədrliyi ilə keçirilmiş Türk Şurasının fövqəladə Zirvə görüşündə dövlət başçıları tərəfindən qaldırılan məsələlərin icrası üçün birgə fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi olub.

Tədbiri hazırda təşkilata sədrlik edən ölkə olaraq Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov aparıb. Görüşdə tərəfdaş ölkələrdə mövcud iqtisadi vəziyyət, COVID-19 pandemiyasının mənfi sosial-iqtisadi təsirlərinə qarşı birgə təkliflərin və praktik tədbirlərin hazırlanması, həmçinin postpandemiya dövründə aidiyyəti sahələr üzrə əməkdaşlığın daha da möhkəmləndirilməsi məsələləri müzakirə edilib.

Mikayıl Cabbarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi və bilavasitə nəzarəti ilə vaxtında görülən çoxşaxəli qabaqlayıcı tədbirlər nəticəsində ölkəmizdə koronavirusa yoluxma hallarının məhdudlaşdırıldığını vurğulayıb. Qeyd edib ki, düşünülmüş və məqsədyönlü siyasəti ilə nümunə olan Azərbaycan bu məsələdə də müsbət mənada fərqlənir. İqtisadiyyat naziri, ilk növbədə, sıx dövlət-vətəndaş həmrəyliyinə söykənməklə insanların sağlamlığının qorunması ilə yanaşı, pandemiyanın milli iqtisadiyyata təsirlərinin azaldılması, zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlara və muzdlu işçilərə dəstək verilməsi, iş yerlərinin qorunması, əhalinin sosial müdafiəsinin təmin edilməsi, həmçinin postpandemiya dövründə yeni iqtisadi inkişaf modelinin tətbiqi üçün real zəmin hazırlamaq məqsədilə həyata keçirilən operativ və sistemli tədbirlər barədə məlumat verib.

Azərbaycanın İqtisadiyyat naziri üzv dövlətlər arasında ikitərəfli sərbəst ticarət haqqında sazişlərin yaratdığı üstünlüklərdən səmərəli istifadə edilməsini, elektron ticarətin inkişafı məqsədilə Türk Şurası dövlətləri arasında elektron imzaların qarşılıqlı tanınması üçün tədbirlərin görülməsini, Türk Ticarət Evinin yaradılmasında Azərbaycan təcrübəsindən yararlanmağı, həmçinin Türk Şurası çərçivəsində üzv ölkələrdə mövcud sərhəd və tranzit rejimlərinin kataloqunun hazırlanmasını, eləcə də nəqliyyat və tranzit rejimində hər hansı təxirəsalınmaz və ya planlaşdırılan dəyişiklik barədə üzv dövlətlərin məlumatlandırılmasını, həmçinin yaxın gələcəkdə ölkələrimizdə malların və prosedurların izlənilməsinə imkan verən onlayn məlumat mübadiləsi sisteminin yaradılmasını təklif edib. Mikayıl Cabbarov üzv ölkələrdə ticarət və investisiyalara mənfi təsirin aradan qaldırılması istiqamətində Türk Şurasının dövlət başçılarının keçirdiyi fövqəladə sammit zamanı Türk Ticarət və Sənaye Palatasının fəaliyyətinin təşviqi və Birgə İnvestisiya Fondunun yaradılması məsələsini xatırladaraq, belə bir fondun yaradılmasının qarşılıqlı investisiya imkanlarını artırmaqla ölkələrimizdə sahibkarlığın, xüsusilə kiçik və orta biznesin inkişafına, yeni iş yerlərinin yaradılmasına, innovasiyaların dəstəklənməsinə, son nəticədə ölkələrin ümumi iqtisadi və sosial inkişafına geniş təkan verə biləcəyini bildirib. Nazir Bakı şəhərində yerləşməklə Birgə İnvestisiya Fondunun yaradılmasına Azərbaycan tərəfinin hər cür dəstək göstərməyə hazır olduğunu bildirib. Rəqəmsal iqtisadiyyatdan danışarkən Mikayıl Cabbarov cari ilin əvvəlində Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzinin filialının Azərbaycanda yaradılması barədə qərar qəbul edildiyini xatırladıb və mərkəzin fəaliyyətindən qardaş ölkələrin də faydalana bilməsi, mərkəzin regional əhəmiyyət kəsb etməsi üçün zəruri tədbirlərin görüləcəyini vurğulayıb.

Mikayıl Cabbarov qeyd edib ki, ərzaq məhsulları üzrə dövlət ehtiyatlarının formalaşdırılması xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan, bütün üzv ölkələr üçün vahid siyahının formalaşdırılması məqsədəuyğundur.

Videokonfransda iştirakçı ölkələrin müvafiq qurumlarının rəhbərləri COVID-19 pandemiyasının iqtisadi inkişafa və ticarət əlaqələrinə mənfi təsirinin azaldılması üçün təmsil etdikləri ölkələrdə görülən işlər barədə məlumat verib, Türk Şurası çərçivəsində həyata keçirilə biləcək birgə tədbirlərlə bağlı təkliflərini bildiriblər.

Görüşdə, həmçinin Türk Şurasına üzv və müşahidəçi ölkələrin gömrük xidməti rəhbərləri arasında fikir mübadiləsi aparılıb, gömrük orqanlarının rəhbərləri pandemiya dövründə praktik addımların icrası barədə təkliflərini səsləndiriblər.

Türk Şurasının Baş katibi Bağdad Amreyev tədbirin operativ təşkilinə görə Azərbaycan tərəfinə təşəkkür edib.

Videokonfransda Türk Şurasının Baş katibi Bağdad Amreyev, Baş katibin müavinləri Ömər Kocaman və Qismət Gözəlov, Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov, Türkiyənin Ticarət naziri Ruhsar Pekcan, Özbəkistanın Baş Nazirinin müavini, İnvestisiyalar və Xarici Ticarət naziri Sardor Umurzakov, Qazaxıstanın Milli İqtisadiyyat naziri Ruslan Dalenov, Ticarət və İnteqrasiya nazirinin müavini Kayrat Torebayev, Xarici İşlər Nazirliyinin İnvestisiyalar üzrə komitəsinin sədri Rustam İsatayev, Qırğızıstanın İqtisadiyyat naziri Sanjar Mukanbetov, Macarıstanın Xarici İşlər və Ticarət naziri Peter Siyarto, həmçinin Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev, Qazaxıstanın Maliyyə Nazirliyinin Dövlət Gəlirlər Komitəsinin sədri Marat Sultanqaziyev, Qırğızıstan Dövlət Gömrük Xidmətinin sədri Altınbek Torutayev, Özbəkistanın Dövlət Gömrük Komitəsinin sədri Murotjon Azimov, Macarıstanın Milli Vergi və Gömrük Administrasiyasının gömrük üzrə baş direktoru Krištof Bokoi iştirak ediblər.

# Qabaqlayıcı tədbirlər səmərə verir

**Azərbaycan Prezidenti İlham Əliyevin fərman və sərəncamlarına əsasən hazırda respublikada hamının diqqəti insanların sağlamlığına və ölkənin gözəgörünməz koronavirus bəlasından mümkün qədər az itkilərlə çıxması üçün aparılan mübarizə tədbirlərinə yönəldilib.**





## Koronavirus pandemiyası ilə mübarizədə könüllülərin əməyi də diqqətçəkəndir










Dövlət başçısının tapşırıq və tövsiyələrinə rəğmən bütün zəruri və mümkün tədbirlər həyata keçirilir. İctimaiyyət də bu işdə dövlətin yanındadır və hər kəs bu mübarizədə bacardığı qədər köməyini göstərir. Bu sırada 1 saylı "ASAN xidmət" Mərkəzinin könüllüləri öz fəallıqları ilə seçilirlər.

Akademik Həsən Əliyev küçəsində yerləşən bu ünvana hər gün yüzlərlə insan müəyyən sənəd və məlumat almaq üçün gəlir. Lakin karantin rejimi tətbiq ediləndən yüzlərlə gənc "ASAN xidmət"in xətti ilə bu xidmətdən nəsə gözləyənlərin, xüsusən də aztəminatlı ailələrin, ahılların, yaşı 65-dən yuxarı olan tənha insanların görüşünə gedir və onların qulluğunda dururlar. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunan könüllülər koronavirusla mübarizədə beynəlxalq və yerli əhəmiyyətli tədbirlərdə, çağırışlarda fəallıqla iştirak edirlər. Dövlət başçısı tərəfindən 2020-ci il "Könüllülər ili" elan olunduğundan "ASAN könüllülər", ümumilikdə "ASAN könüllülük" hərəkatının hər bir üzvü hər işə, hər tapşırığa daha böyük məsuliyyətlə yanaşırlar. Bunun nəticəsidir ki, müxtəlif könüllülük hərəkatlarında birləşmiş könüllülər fərqli uğurlu layihələrə imza atırlar.

Bu gün bütün dünyanı bürüyən koronavirus pandemiyası ilə mübarizədə könüllülərin əməyi də diqqətçəkəndir. "ASAN könüllülər"i respublikamızda koronavirus pandemiyasına qarşı mübarizəyə qoşulan, dövlət başçısının çağırışına cavab verən ilklərdən olmuşlar. Yaranmış vəziyyətlə əlaqədar olaraq "ASAN könüllülər"i "ASAN xidmət" əməkdaşları ilə birlikdə bir neçə istiqamət üzrə fəaliyyət göstərməyə başlamışlar. İlk addım kimi mart ayının 16-dan başlayaraq 15 nəfərdən ibarət "ASAN könüllülər" qrupu Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (publik hüquqi şəxs TƏBİB) əməkdaşları ilə xarici ölkələrdən gələn vətəndaşlarımızı qarşılayaraq onları tibbi vasitələr və maarifləndirici materiallarla təmin edirlər. TƏBİB tərəfindən zəruri tibbi təhlükəsizlik vasitələri ilə tam təmin olunan könüllülər eyni zamanda TƏBİB-in şimal bölgəsində yerləşən qərargahında da çalışırlar. Könüllülərin böyük cəsarət və həvəslə bu işdə çalışmaları ilk növbədə onların vətənə və dövlətə olan sevgisinin göstəricisidir.

"ASAN könüllülər"i cari il mart ayının 24-dən xüsusi karantin rejiminin elan olunması ilə əlaqədar "ASAN məktub" sosial proqramı çərçivəsində yaşı 65-dən yuxarı olan vətəndaşlarımıza dəstək olurlar. Yaşlı əhaliyə tətbiq olunmuş məhdudiyyət nəticəsində onların ərzaq və dərmanlara olan ehtiyaclarını ödəyirlər. Bu istiqamətdə indiyədək 850-dən artıq yaşlı vətəndaşımıza yardım göstərilmişdir. Bu iş təkcə Bakı şəhərini deyil, Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Mingəçevir, Qəbələ, Quba, Masallı, İmişli, Şəki, Tovuz, Şamaxı, Kürdəmir və digər rayon və şəhərlərdə də icra olunmuşdur. Könüllülər "ASAN məktub" sosial proqramı çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aidiyyəti bölmə əməkdaşları ilə birgə ahıl vətəndaşlarla görüşür, onları zəruri qida məhsulları, lazımi tibbi dərmanlarla təmin edirlər.

Yaşlı vətəndaşlarımıza dəstək eyni zamanda Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi (AKƏM) çərçivəsində də həyata keçirilir. Belə ki, aprel ayının 6-dan "Könüllü qonşu" aksiyasına qoşulan "ASAN könüllüləri"n ahıl insanların diqqət və qayğı ilə əhatə dairəsi daha da genişlənmişdir. Onların ahıllara münasibəti, eyni zamanda, ölkə rəhbərliyinin gənclərimizdə görmək istədiyi milli-mənəvi irsə qayğının nümunəsidir. Onlar humanist fəaliyyətləri ilə bu dəyərləri yaşadırlar.

Bakı şəhərində və regionlarda yaşayan könüllülər xüsusi karantin rejimi tətbiq ediləndən "Yaşıl ASAN" ekoloji proqramı çərçivəsində sosial şəbəkələrdə "Evdə qal, təbiəti qoru" kimi 100-dən çox maarifləndirici müraciətlər paylaşıblar. Vətəndaşlarımızı sahibsiz heyvanlara qayğı ilə yanaşaraq yaşadıqları bina və evlərin qarşısında bir ovuc yem və su qabları yerləşdirməyə çağırıblar. Bundan başqa, "Yaşıl ASAN" ekoloji proqramı martın 28-dən etibarən bütün dünya tərəfindən keçirilən iqlim dəyişikliyinə qarşı mübarizəyə həsr edilmiş "Beynəlxalq Yer saatı" aksiyasına dərhal dəstək vermiş və 200-dən çox "ASAN könüllü"sü evdə qalmaq şərtilə işıqları bir saat söndürməklə çağırışa qoşulmuşlar.

Koronavirusla mübarizə günlərində "ASAN könüllülər"i Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzinin elan etdiyi "Könüllü donor" aksiyasına qoşularaq talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkən uşaqlara qan vermiş və təşkilati işlərdə kömək etmişlər. Könüllülər bu ərəfədə UNİCEF ilə birgə layihə çərçivəsində valideyn himayəsindən məhrum uşaqların və əlilliyi olan gənclərin ailələrinə qida yardımları paylayırlar. Layihə Avropa İttifaqının maliyyə yardımı, habelə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə həyata keçirilir. Bu layihədən iki mindən çox ailənin faydalanacağı nəzərdə tutulur. Layihə Bakı şəhərini və respublikamızın bir çox bölgələrini əhatə edir.

"ASAN könüllülər"i tərəfindən əhalinin maarifləndirilməsi istiqamətində də ciddi işlər aparılır. Bu sahədə "ASAN könüllülər"i müxtəlif videoroliklər hazırlayaraq sosial şəbəkələr vasitəsilə onları yayırlar. UNİCEF ilə əməkdaşlıq çərçivəsində koronavirus pandemiyası ilə mübarizə metodları barəsində maarifləndirici materialları əhaliyə çatdırırlar. Eyni zamanda Ümumdünya Səhiyyə Təşkilatının "Təmiz Əllər" kampaniyasına ilkin olaraq qoşulmuş "ASAN könüllülər"i estafeti digər könüllü təşkilatlara ötürmüşlər. "ASAN könüllülər"i ahıl və uşaqlarla yanaşı, xüsusi təyinatlı xəstəxanalarda karantin rejimində olan vətəndaşlarımızın və orada çalışan tibb işçilərinin suya olan tələbatını ödəmək üçün layihəni də həyata keçirmişlər. Bu layihə çərçivəsində "Coca-Cola Azərbaycan" şirkətinin dəstəyi ilə respublikamızın müxtəlif bölgələrində müvafiq xəstəxanalara ödənişsiz 120 min ədəd "Bonaqua" suyu çatdırılmışdır. Bu günlərdə "ASAN könüllüləri"nin "Coca-Cola" Fondu ilə əməkdaşlığı çərçivəsində yeni bir layihəyə də start verilmişdir. Bu layihəyə görə 3.500 aztəminatlı ailəyə qida və tibbi ləvazimatlar çatdırılıb. Bununla yanaşı, 1000 nəfər tibbi heyətə "COVID-19" virusundan tibbi müdafiə vasitələri çatdırılması və geniş əhali kütləsi arasında maarifləndirmə işləri aparılması da nəzərdə tutulub. Layihə Bakı şəhərini və respublikamızın bir sıra bölgələrini əhatə edəcək.

Aprel ayının son həftəsindən başlayaraq "ASAN könüllüləri", həmçinin "Var olun!" sosial çağırışı ilə daha bir layihəyə də start veriblər. Məqsəd xüsusi karantin rejimi dövründə fasiləsiz xidmət göstərən polislərə vətəndaşlarımızın təşəkkür mesajının çatdırılmasıdır. Layihə 4 gün ərzində davam edərək 160 stasionar polis postunu əhatə etmişdir. "ASAN könüllülər" Hərəkatının Mingəçevir regional "ASAN xidmət" Mərkəzinin gəncləri karantin rejimi ilə əlaqədar olaraq şəhər Mərkəzi xəstəxanasının tibbi heyəti ilə birlikdə ahıl və tənha yaşayan şəkərli diabet xəstələrinə dərmanlar paylamışlar. Bundan başqa, onlar tibb işçiləri ilə birlikdə şəkərli diabet xəstələrinin vahid elektron registrinin və məlumat bazasının təkmilləşdirilməsi, onların dərman preparatları, özünənəzarət vasitələri ilə təmin edilməsi və s. kimi işlərə kömək göstərmişlər.

"ASAN xidmət" mərkəzində olarkən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnsan resursları və təlim şöbəsinin müdir müavini, "ASAN könüllülük" məktəbinin rəhbəri Cahangir Hacıyev bildirdi ki, görülmüş bütün bu işlərin əsas qayəsi dövlətimiz və vətəndaşlarımız üçün çətin olan dönəmdə onların yanında olmaq, Azərbaycan Prezidentinin "Biz birlikdə güclüyük!" çağırışına həmrəylik nümayiş etdirərək ölkə rəhbərliyinin etimadını doğrultmaqdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## İnfeksiyanın yayılmasının qarşısının alınması üçün lazımi tədbirlər görülür

### Pozitiv dinamikanı saxlamaq üçün karantin qaydalarına ciddi əməl edilməlidir

Qlobal pandemiya elan edilən koronavirus (COVID-19) dünya üzrə sürətlə yayılmaqda və artmaqda davam edir. Bütün ölkələrdə karantin rejimləri tətbiq olunub, xəstəliyin yayılmaması üçün ciddi tədbirlər görülür. Təəssüf ki, hələlik "taclı" bəlanın qarşısını almaq mümkün olmayıb və bu qeyri-adi halın nə qədər sürəcəyi də sual altındadır.




Azərbaycan hazırkı qlobal təhlükənin öz əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biridir. Vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, onların təhlükəsizliyinin etibarlı müdafiəsi və hazırkı qlobal problemin təsirindən qorunması Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələdir.

Hazırda Azərbaycanda həyata keçirilən qabaqlayıcı tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa və sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verir. Buna görə də, artıq karantin rejimi yumşaldılıb və ölkə üzrə mərhələli çıxış planı həyata keçirilir.

### Koronavirusdan qorunmağın əsas yolu

Amma mayın 5-də Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində əhalinin məhz bu ərəfədə daha diqqətli olması, əks təqdirdə əldə etdiyimiz müsbət dinamikanın itiriləcəyi ilə bağlı xəbərdarlıq edilib. Mətbuat konfransında TƏBİB-in şöbə müdiri Yaqut Qarayeva bildirib ki, son vaxtlar pozitiv dinamikanı itirməyə başlamışıq, yeni yoluxmaların sayı artır: "Biz bilirdik ki, karantin rejimindən çıxmağa başlayanda yoluxmaların sayı artacaq. Bunun səbəbini bilmək üçün küçəyə çıxmaq kifayətdir. Koronavirusdan qorunmağın əsas yolu karantin qaydalarına ciddi əməl etməkdir".

### Pandemiya ilə əlaqədar mühüm sosial dəstək proqramı uğurla həyata keçirilir

Prezident İlham Əliyevin tapşırığına əsasən, birdəfəlik ödəmə proqramının əhatə dairəsi 3 dəfə artırılmaqla, birdəfəlik ödəmə verilənlərin sayı 200 mindən 600 minə çatdırılıb.

Bu çərçivədə daha 100 min aztəminatlı üçün birdəfəlik vəsait (190 manat) köçürülüb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən xəbərə görə, bununla da pandemiya ilə əlaqədar mühüm sosial dəstək proqramlarından biri olan birdəfəlik ödəmə proqramı üzrə 600 min şəxsin müəyyən edilməsi və onlara aprel ayına dair ödənişlərin olunması prosesi yekunlaşıb.

Qeyd edək ki, nazirlik tərəfindən aprelin 9-dan ödəniş prosesi həyata keçirilib. Aztəminatlı ailələr göndərilən SMS-lərdə göstərildiyi qaydada poçt şöbələrindən və ya bank filiallarından vəsaitlərini alıblar.

May ayına dair birdəfəlik ödənişləri isə həmin vətəndaşlar bank kartları vasitəsilə alacaq. Nazirliyin sifarişi ilə hazırlanan kartlar banklar tərəfindən hazırda onlara təqdim edilir.

### Koronavirusdan sağalanlar digər xəstələrə yardıma çağırılır

TƏBİB koronavirusdan sağalan vətəndaşlara müraciət edib. Müraciətdə bildirilir ki, artıq ölkəmizdə ağır koronavirus xəstələrinin immun plazma müalicəsinə başlanılıb. Bu məqsədlə, TƏBİB COVID-19 xəstəliyindən sağalan vətəndaşlardan qan plazması donoru olaraq, digər xəstələrə yardım etməyə çağırır.

Mərkəzi Qan Bankı, Mirəli Qaşqay küçəsi, 87
Telefonlar:
907
+99412 440 65 86
+99412 440 78 50
+99412 441 66 52.

### Test nəticəsi neqativ olan şəxslərə SMS ismarıc göndəriləcək

COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində ölkədə həyata keçirilən tədbirlərə dəstək məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İnformasiya Texnologiyaları və İnnovasiyalar İdarəsi tərəfindən ölkə üzrə 120 nümunə qəbulu məntəqəsi və 19 laboratoriya avtomatlaşdırılıb.

Agentlikdən verilən xəbərə görə, sözügedən müəssisələr kompüter avadanlıqları, printerlər, barkod oxuyucuları, operativ şəkildə nümunələrin qəbulu və nəticələrin əldə edilməsi üçün proqram təminatı ilə təchiz olunublar.

Koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün analiz nümunələrinin qəbulunu həyata keçirən qəbul məntəqələrinə pandemiya ilə mübarizəyə ayrılmış xüsusi rejimli tibb müəssisələri və təcili və təxirəsalınmaz tibbi yardım xidmətləri daxildir.

Məqsəd koronavirusla bağlı aparılan testlərin nəticələrinin avtomatik olaraq vahid məlumat bazasına işlənilməsini təmin etmək, nəticələr barədə Nazirlər Kabineti yanında Operativ Qərargahı, eləcə də digər aidiyyəti dövlət qurumlarını elektron şəkildə məlumatlandırmaqdır.

Test nəticəsi neqativ olan şəxslər bu barədə məlumatı agentlik tərəfindən göndərilən SMS ismarıc vasitəsilə əldə edəcəklər.

### Karantin qaydalarını pozanlar məsuliyyətə cəlb olunurlar

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə 05.05.2020-ci il saat 00:00-dan 06.05.2020-ci il 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 423 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Baş Dövlət Yol Polisi İdarəsindən bildirilib ki, ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 48386 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

### Dünyada koronavirus

Dünya miqyasında koronavirusa yoluxanların sayı 3 milyon 727 min 936 nəfərə çatıb. Bu günə qədər 258 min 344 nəfər dünyasını dəyişib. Sağalanların sayı isə 1 milyon 242 min 432 olub. Hazırda 2 milyon 227 min 160 nəfərin müalicəsi davam edir. Onlardan 49 min 248-nin vəziyyəti kritikdir.

Son bir neçə saat ərzində 3 min 418 yeni yoluxma, 317 ölüm faktı qeydə alınıb.

Almaniyanın "BioNTech" biotexnologiya firması ABŞ-ın "Pfizer" dərman şirkəti ilə birlikdə hazırladığı COVID-19 peyvəndinin 2-ci mərhələ sınaqlarına başlayıb.

Kliniki sınaqların 2-ci mərhələsi ABŞ-ın Merilend və Nyu York Universitetlərində həyata keçirilir.

"Pfizer"dən verilən açıqlamada bu mərhələdə BNT162 adlı potensial peyvəndin immun təminatçılığın və uyğun dozanın müəyyən edilməsinin öyrəniləcəyi bildirilib. Peyvənd 18-55 və 65-85 yaş qrupları olmaqla, 360 sağlam şəxsə vurulub. Sınaqlar 18-55 yaş qrupunda effektiv və təhlükəsiz olarsa, digər yaş qrupuna keçid ediləcək.

Sınaq uğurla tamamlanarsa, peyvənd ilin sonuna qədər istehsal olunub ABŞ-da paylanacaq.

Qeyd edək ki, "BioNTech" biotexnologiya firmasının qurucu ortağı türk professor Uğur Şahindir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Cəlilabadda bütün qüvvələr pandemiyaya qarşı səfərbərliyə alınmışdır

Prezident İlham Əliyevin və Nazirlər Kabineti yanında Operativ Qərargahın göstərişlərinə uyğun olaraq Cəlilabad rayonunda koronavirus pandemiyasına qarşı mübarizənin gücləndirilməsi üçün bütün zəruri tədbirlər sistemli şəkildə həyata keçirilir.

Rayon icra hakimiyyəti karantin rejiminin tələblərinə əməl edilməsinə, əhali arasında izahat işlərinin aparılmasına, yaşayış məntəqələrinin dezinfeksiya olunmasına ən vacib məsələ kimi baxır. Bu işin rayon ərazisində kifayət qədər peşəkarlıqla qurulması, müntəzəm və mütəşəkkil şəkildə aparılması hər bir addımda aydın şəkildə görünür.

Belə ki, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və sosial təcridin gücləndirilməsi, rayonun bütün yaşayış məntəqələrində xüsusi karantin rejimi tələblərinin yerinə yetirilməsi, habelə əhali arasında maarifləndirmə işinin aparılması təmin edilir və gündəlik olaraq dezinfeksiya işləri həyata keçirilir. Bu məqsədlə rayon icra hakimiyyəti aparatının, inzibati ərazi nümayəndəliklərinin, bələdiyyələrin, habelə digər qurumların nümayəndələrindən ibarət 2-3 nəfərlik mobil qruplar səmərəli fəaliyyət göstərir. Onlar şəhər və kəndlərdə fərdi izahetmə-xəbərdarlıq işləri apararaq, sakinlərə şəxsi gigiyena qaydalarına əməl etməyi, özünütəcrid tədbirlərinə uyğun davranmağı, yalnız ciddi ehtiyac yarandıqda evdən çıxmağı, zərurət qarşısında qalaraq evdən çıxan sakinlərə ehtiyatlı davranmağı, digər şəxslərlə minimum kontaktda olmağı, insanların sıx toplaşdığı yerlərə getməməyi, qoruyucu maska və əlcəklərdən istifadə etməyi tövsiyə edirlər. Bu iş sistemli və ardıcıl xarakter daşıyır.



Bununla yanaşı, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə fəaliyyətlərinə məhdudiyyət müəyyən edilmiş bir sıra sahibkarlıq subyektlərinin tələblərə əməl etməsi vəziyyətini öyrənmək məqsədilə müntəzəm müşahidələr aparılır və statistik rəqəmlər pozitiv vəziyyəti aydın göstərir.

Rayon sakinləri Prezident İlham Əliyevin çağırışına ciddi şəkildə əməl edirlər və göstərilən səylər də öz nəticəsini verir. Bütünlükdə insanlar normal həyatlarını yaşayırlar və yaxşı anlayırlar ki, problemlərin həlli onların öz əllərindədir. Çətinlik kifayət qədər olsa da, panikaya qapılmaq hallarına təsadüf edilmir, ruh düşkünlüyü yoxdur, vətəndaşlar yaranmış vəziyyəti növbəti sınaq kimi qəbul edirlər. Rayonda təchizat da yaxşı səviyyədədir, "qara gün" üçün ərzaq dükanlarını evə daşımaq təşəbbüslərinə rast gəlinmir. Fədakar tibb işçiləri gecə-gündüz iş başındadırlar. Eyni zamanda aztəminatlı ailələrə yardımların verilməsi də davam etdirilir, çətin günlərdə tənhalara, köməksizlərə xeyriyyə aksiyaları, diqqət və qayğıya ehtiyacı olan minlərlə şəxsə maddi və mənəvi dəstək göstərilməsi kimi sosial tədbirlərin miqyasının genişlənməsi sevindiricidir. Son bir neçə gün ərzində Cəlilabad və Göytəpə şəhərlərində, habelə kəndlərdə yüzlərlə ailəyə ərzaq məhsullarından ibarət sovqatlar paylanmışdır. Xeyirxah təşəbbüsləri razılıqla qarşılayan vətəndaşlar onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirirlər.

Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalov bu məsələlərə münasibətdə söyləmişdir: "Dövlət başçısı dəfələrlə qeyd edib ki, insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür, əsas məsələ xalqımızı bu xəstəlikdən qorumaqdır. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı koronavirusla mübarizə sahəsində nümunəvi ölkə adlandırıb. Bütün ölkəmizdə olduğu kimi, rayonumuzun əhalisi də Prezident İlham Əliyevin çağırışına ciddi şəkildə əməl edirlər. Üzləşdiyimiz sınaqdan xilas olmaq üçün birliyimiz və həmrəyliyimiz yetərincədir. Bundan sonra daha ciddi məsuliyyət və nizam-intizam nümayiş etdirəcək və ayıqsayıq olacağıq".

***Aydın HÜSEYNOV,***
***Cəlilabad rayon***
***"Yeni gün" qəzetinin redaktoru***

# İlham Əliyevin yüksək beynəlxalq nüfuzunun növbəti təcəssümü

## Azərbaycan Prezidenti bu dəfə Qoşulmama Hərəkatını koronavirus pandemiyasına qarşı səfərbər etdi

Əvvəli 1-ci səh.

Bu baxımdan Qoşulmama Hərəkatının videokonfrans vasitəsilə Zirvə görüşünün keçirilməsi göstərdi ki, Prezident İlham Əliyev bütün dünyanın narahat günlər yaşadığı indiki vəziyyətdə təşkilatın fəaliyyətini üzv dövlətlərin maraqları naminə uğurla təmin edir.

### Etibar və etimadın göstəricisi

Qeyd edək ki, Azərbaycan Prezidentinin Zirvə görüşünün keçirilməsi ilə bağlı təşəbbüsü Qoşulmama Hərəkatına üzv dövlətlər tərəfindən də yekdilliklə dəstəklənib. BMT Baş Assambleyasından sonra dünyada ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatında 120 dövlətin təmsil olunduğunu nəzərə alaraq, Zirvə görüşü coğrafi təmsilçilik prinsipi əsasında, Avropa, Asiya, Afrika və Latın Amerikasında yerləşən ölkələrin iştirakı ilə Təmas Qrupu formatında keçirildi.

Zirvə görüşündə 40-a yaxın ölkənin dövlət və hökumət başçısının, xarici işlər nazirlərinin, o cümlədən BMT Baş Assambleyasının prezidentinin, Afrika İttifaqının sədrinin, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun iştirak etdiyi Zirvə toplantısı, ilk növbədə, Azərbaycana və Prezident İlham Əliyevə olan inamın, etibarın və etimadın göstəricisi kimi tarixə düşdü. O cümlədən Zirvə görüşünə BMT Baş katibi Antonio Quterreşin və Avropa İttifaqının ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti Cozef Borelin videomüraciət ünvanlaması, habelə Zirvə görüşünü təşkil etdiyi və pandemiya ilə mübarizəyə ciddi əməli töhfələr verdiyinə görə, Azərbaycan Prezidentinin fəaliyyətinin təqdir olunması, ünvanına çoxsaylı təşəkkürlər bildirilməsi ölkəmizin və onun liderinin beynəlxalq arenada yüksək nüfuzunun növbəti əyani göstəricisidir.

Avropa İttifaqı rəsmisinin Zirvə görüşündə iştirakı və çıxışı isə Qoşulmama Hərəkatının tarixində ilk dəfə baş vermiş hadisədir. Məhz Azərbaycan daim bir-biri ilə əks-qütblərdə olan Qoşulmama Hərəkatı ilə Avropa İttifaqını koronavirus təhlükəsi zamanı bir araya gətirməyə müvəffəq oldu.

Bu tədbiri keçirməklə Azərbaycan bir daha təsdiq etdi ki, Qoşulmama Hərəkatına sədrliyi öz üzərinə götürərkən beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacağına, həmrəyliyi gücləndirəcəyinə və qarşılıqlı dəstəyi rəhbər tutacağına dair vədlərinə qətiyyətlə əməl edir. Eyni zamanda Zirvə görüşü göstərdi ki, ölkəmiz koronavirus pandemiyası ilə bağlı formalaşan yeni reallıqlara, yaranmış vəziyyətə çevik və adekvat reaksiya verir. Ən əsası isə Zirvə görüşü koronavirusla qlobal mübarizənin daha da gücləndirilməsinə təkan verəcək. Prezident İlham Əliyev Zirvə görüşündəki yekun nitqində bu barədə dedi: "Qoşulmama Hərəkatına üzv ölkələrin bir-birinin problemlərini anlayışla qarşılaması, həmrəylik nümayiş etdirməsi və çoxtərəfli əməkdaşlığa üstünlük verməsi böyük əhəmiyyət kəsb edir. Qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlıq xüsusilə aktualdır. Əminəm ki, bu gün dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri tərəfindən edilən çıxışlarda səslənən dəyərli fikirlər və təkliflər koronavirus xəstəliyinə qarşı bizim birgə mübarizəmizə töhfə verəcəkdir".

Zirvə görüşü ilə bağlı başqa bir mühüm məqam isə ondan ibarətdir ki, Qoşulmama Hərəkatının sədri olan Azərbaycanın fəal surətdə çoxtərəfli diplomatiyanı və multilateralizmi təşviq etməsi dünya birliyi tərəfindən təqdir olunur. Qəbul olunmuş yekun bəyannamədə dəyərli və vaxtında irəli sürülmüş təşəbbüsə görə Prezident İlham Əliyevə xüsusi təşəkkürün öz əksini tapması da bunun bariz göstəricisidir.

Qlobal əməkdaşlığa güclü ehtiyac duyulduğu bir şəraitdə dövlətlər, eləcə də bir sıra beynəlxalq və regional təşkilatlar adekvat reaksiya göstərə, beynəlxalq həmrəyliyin gücləndirilməsi ilə bağlı zəruri addımlar ata bilməyiblər. Azərbaycan Prezidenti İlham Əliyev isə qlobal liderliyə ehtiyac duyulan bir şəraitdə və vaxtda təşəbbüslə çıxış edərək beynəlxalq əməkdaşlığın dövlətlərə faydalı olacağını nümayiş etdirdi və dünyanın ayrı-ayrı qitələrindən müxtəlif siyasi və ideoloji quruluşlara malik ölkələri bir araya gətirməyə nail oldu. Türk Şurasından sonra Qoşulmama Hərəkatının Zirvə görüşünün keçirilməsinə nail olmaqla Prezident İlham Əliyev pandemiyaya yalnız qlobal əməkdaşlıq və həmrəylik sayəsində qalib gəlməyin mümkünlüyünü bir daha dünyaya nümayiş etdirdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Elmar Qasımov Bakı Ali Neft Məktəbinin Avropada təhsil alan tələbələrilə onlayn görüş keçirib

**Bakı Ali Neft Məktəbinin Mətbuat xidmətindən verilən məlumata görə, BANM-in rektoru Elmar Qasımov "Erasmus+" mübadilə proqramı çərçivəsində xaricdə təhsil alan BANM tələbələri ilə onlayn görüş keçirib.**

Onlayn görüşdə ali məktəbin Bolqarıstanın "Angel Kançev" adına Ruse, Yunanıstanın Qərbi Attika və İspaniyanın Alkala universitetlərində təhsil alan tələbələri, həmçinin, "Erasmus +" və Beynəlxalq Proqramlar Ofisinin rəhbəri Nərgiz Tarıverdiyeva və mütəxəssisi Cəmilə Əskərova iştirak ediblər.

Rektor Elmar Qasımov bütün dünyada, eləcə də Avropada hazırkı çətin vəziyyətə baxmayaraq, təhsillərini əzmlə davam etdirən tələbələri təbrik edib. O, tədris müddətinin bir qismini geridə qoyan tələbələrin iyun ayında təhsillərini uğurla başa vuracaqlarına əminliyini ifadə edib. Rektor ümumilikdə 2019-2020-ci tədris ilinin yaz semestrində Bakı Ali Neft Məktəbinin Proseslərin avtomatlaşdırılması mühəndisliyi (PAM) ixtisasından 15 tələbənin "Erasmus +" mübadilə proqramı çərçivəsində təhsillərini Avropada davam etdirdiyini qeyd edib.



E.Qasımov bildirib ki, yarana biləcək hər hansı təhlükənin qarşısının alınması, sağlamlıq və təhlükəsizliyə nəzarətin gücləndirilməsi, eləcə də zəruri tədbirlərin operativ həyata keçirilməsi məqsədilə BANM-in "Erasmus +" və Beynəlxalq Proqramlar Ofisi tərəfindən tələbələrin təhsil aldıqları universitetlərlə sıx əlaqələr qurulur. Mütəmadi olaraq tələbələrin ehtiyacları və müvəqqəti yerləşmə ölkəsindəki vəziyyəti ilə bağlı məlumatlar əldə olunaraq təhlil olunur. Bütün bunlara baxmayaraq, rektor tələbələrə şəxsi gigiyena, həmçinin yaşadıqları ölkədə tətbiq edilən karantin qaydalarına əməl etməyi və qidalanmalarına diqqət yetirməyi tövsiyə edib.

Tələbələr də öz növbəsində məskunlaşdıqları ölkədəki karantin rejimin qaydalarına ciddi əməl etdiklərini, təhsil aldıqları universitetlər tərəfindən təşkil edilən onlayn dərslərdə fəal iştirak etdiklərini, dərslərə və imtahanlara səylə çalışdıqlarını qeyd ediblər. Eyni zamanda, onlar özlərini yaxşı hiss etdiklərini və sağlamlıqlarında heç bir narahatlığın olmadığını vurğulayıblar.

Qeyd edək ki, ali məktəbin Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasının IV kurs tələbələri Azər Əliyev, Fidan Abbaszadə, Emil Nağızadə, Tərlan Əhədli Bolqarıstanın "Angel Kançev" adına Ruse Universitetində, Həmidə Əliyeva, Kamran Alcanov, Toğrul Nəbili, Ömər Məmmədov Yunanıstanın Qərbi Attika Universitetində, eyni ixtisasın III kurs tələbələri Müjgan Hüseynli, Yaqut Bədəlova, Yaqut Şəkizadə, Mahirə Əsədzadə, Ayxan Haqverdiyev, Şəms Əliyeva və Sənan Həsənov isə İspaniyanın Alkala Universitetində təhsil alırlar.

# Azərbaycanda koronavirusa daha 67 yoluxma faktı qeydə alınıb, 28 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 67 yoluxma faktı qeydə alınıb, 28 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1958 və 1969-cu il təvəllüdlü iki nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 2127 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1536 nəfər müalicə olunaraq sağalıb, 28 nəfər vəfat edib, 563 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 24 nəfərin vəziyyəti ağır, 33 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 169.790 test aparılıb.

# Sabirabadda aqrar sektorun inkişafına xüsusi önəm verilir

## Pambıq isə kəndlinin firavan həyatını təmin edir





Əvvəli 1-ci səh.





Dövlət başçısının qeyri-neft sektoru olaraq kənd təsərrüfatını innovativ üsullar, mütərəqqi texnologiyalar əsasında inkişaf etdirmək istiqamətində həlledici amil olan böyük qayğısı, dəyərli tapşırıq və tövsiyələri çox qısa bir zaman kəsiyində vəziyyəti müqayisəedilməz dərəcədə dəyişdi. İndi rayonun aqrar sektorunda güclü maddi-texniki baza yaradılıb. Rayonda son dövrlərdə əlavə iki pambıq tədarükü məntəqəsi fəaliyyətə başlayıb. Artıq rayonda pambıqyığan maşınların sayı 34-ə çatır. Şum traktorlarının sayı 32-ni keçib. Keçən il pambıq tarlalarında 92 becərmə traktoru işləyib. Halbuki 3 il əvvəl onların sayı cəmi 18 ədəd idi. Keçən il rayonda 8630 hektarda pambıq əkilib-becərilib, hər hektar sahədən 29.2 sentner məhsul götürülməklə 25 min tondan çox pambıq istehsal olunub. Qazanılan nəticə son on ilin ən yüksək göstəricisi olmuşdur. 2016-cı illə müqayisədə rayonda pambıq istehsalı 2019-cu ildə 32 dəfə artmışdır. 2019-cu ildə pambıq əkən torpaq istifadəçilərindən 900 nəfəri 30 sentnerdən, 144 nəfəri isə 50 sentnerdən yuxarı məhsuldarlığa nail olmuşdur.

Bu günlər rayonun təsərrüfatlarında yaz-tarla işlərinin qızğın çağıdır. Sahələr pambıq əkininə aqrotexniki qaydalar əsasında hazırlanmış, vaxtında dondurma şumu edilmiş, qış aratına qoyulmuş, səpinöncəsi malalanıb hamarlanmışdır. Bu il 10.000 hektar sahədə pambıq əkmək nəzərdə tutulur. Fermerlər və torpaq istifadəçiləri ilə pambıq zavodları arasında əvvəlcədən müqavilələr bağlanmış, öhdəliklər müəyyənləşdirilmişdir.

Bu gün Sabirabadın aqrar sektoru dinamik inkişaf yolundadır. Kənd təsərrüfatı məhsullarının istehsalı ildən-ilə artmaqdadır. Rayonumuzun "Sarı kəhrəba" ustaları keçən il 100 min tondan çox taxıl (hər hektardan 40 sentner) istehsal edərək ölkənin ərzaq təhlükəsizliyi proqramına sanballı töhfə vermişlər. Bu il taxıl istehsalında ciddi artıma nail olunacağı şübhəsizdir. Cari ilin məhsulu üçün taxıl əkilmiş 25 min hektarda zəmilərin becərilməsi aqrotexniki qaydalar əsasında davam etdirilir.

Dövlətin aqrar sektorun inkişafında xüsusi önəm verdiyi sahələrdən biri də baramaçılıqdır. Baramaçılığın inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramında qarşıya qoyulan vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün rayonda zəruri tədbirlər görülür. Bu sırada baramaçılığın yem bazasının möhkəmləndirilməsinə böyük önəm verilir. Rayonun təsərrüfatlarında Çin Xalq Respublikasından gətirilmiş yüksək məhsuldarlığa malik 123 min tut tingi plantasiya şəklində əkilmişdir. Bunun 55 mini keçən il əkilmiş ağaclardır. Bu sahədə çəkilən zəhmətin nəticəsidir ki, rayonda barama tədarükü son dörd ildə 3000 kiloqramdan artaraq keçən il 14000 kiloqrama çatmışdır. Artıq kümçülərin qayğılı günləri başlayır. Baramaçılara 450 qutu ipəkqurdu paylanmışdır. Bu il əsas hədəf barama istehsalını 18 tona çatdırmaqdır.

Respublikada kənd təsərrüfatı kooperasiyalarının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramının qəbulundan sonra ölkədə ilk kooperativlər Sabirabad rayonunda yaradılmışdır. Yaxa Dəllək və Beşdəli kəndlərində "Birlik", Axısxa kəndində "Axısxalılar" istehsal kooperativlərinin təsis yığıncaqlarında Kənd Təsərrüfatı naziri İnam Kərimov şəxsən iştirak etmişdir. Cənab nazirin təsisçilər arasında yer almaq istəyi yeni kooperativ üzvlərində böyük məmnunluq yaratmaqla bərabər ilk addımlarını atan birliyin sabahına ümidləri də artırmış oldu.

Sabirabad kəndlisi kürəyində daim dövlətin güclü əlini, isti nəfəsini hiss edir. Prezident İlham Əliyevin tapşırığı ilə Moranlı Balahəsimxanlı, Sarxanbəyli kəndlərinin və ətraf ərazilərin su təminatını yaxşılaşdırmaq üçün 34 kilometr uzunluğunda beton üzlüklü kanalın istifadəyə verilməsi rayonda işgüzar mühiti daha da canlandırmış, bölgədə yüksək əhval-ruhiyyə yaratmışdır. Bütün varlığı ilə torpağa bağlı Sabirabad kəndlisində minnətdarlıq doğuran dövlət qayğısının üfüqləri kifayət qədər genişdir. Keçən ilin yekunlarına əsasən rayonun pambıq, barama istehsalçılarına süni mayalanma yolu ilə alınan buzovlara görə və digər kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi hesabına 5,1 milyon manat subsidiya verilmişdir. Dövlət qayğısı yeni forma və məzmunda davam edir. Bu ildən etibarən subsidiyalar yeni qaydalar əsasında verilir. Bu mütərəqqi layihənin uğurunu təmin etmək üçün kənd təsərrüfatı işçiləri arasında geniş maarifləndirmə işi aparılmış, çoxsaylı seminar-müşavirələr keçirilmişdir. Yeni qaydaların tətbiqini kənd əməkçiləri razılıqla qarşılayırlar.

Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin tətbiqi uğurla həyata keçirilir. İndiyədək elektron sistemdən 20 min fermer qeydiyyatdan keçmişdir. Yeni qaydalara uyğun olaraq fermerlər öz əkinlərini rahat şəkildə elektron sistem üzərindən bəyan edə bilərlər. Fermerlərin rahatlığı üçün "ASAN xidmət"in inzibati binasında da pəncərə açılmış və kəndlərdə səyyar xidmət təşkil olunmuşdur. Kənd Təsərrüfatı Nazirliyinin birbaşa köməkliyi ilə Sabirabad Dövlət Aqrar İnkişaf Mərkəzində aqrar sahənin könüllüləri ilə işin təşkili məsələləri daim diqqətdə saxlanılır. İndiyədək 71 nəfər "Aqrar İnkişaf Könüllüləri" məzun olunmuşdur. Könüllülərin səmərəli fəaliyyəti üçün əlverişli şərait yaradılmışdır.

***Heydər YAQUBOV,***
***Sabirabad Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru***

# Azərbaycan qazının yolu Avropayadır

## TAP-la mavi yanacaq nəqlinin bu ilin payızında başlanması gözlənilir

Əvvəli 1-ci səh.

Boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihə üzrə biri Yunanıstandakı Kipoi, digəri isə Albaniyanın Fier məntəqəsində olan kompressor stansiyalarının inşası tamamlanıb. Bununla yanaşı, Albaniyanın şərqində, Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi də yekunlaşıb. İtaliyadakı təbii qazın qəbulu terminalının isə tikinti işlərinin təqribən 70 faizi başa çatıb.




Boru kəmərinin inşası çərçivəsində Albaniyada tikinti işləri tamamlanmaqdadır. "Saipem" şirkətinin "Castoro 6" borudüzən gəmisi İtaliyanın San Foka bölgəsində işlərə başlayıb. Bu nəhəng gəmi TAP-ın Adriatik dənizindəki 105 kilometrlik hissəsində, yəni İtaliyadan Albaniyayadək olan xətdə boruları inşa edəcək.

TAP-ın quru hissəsinin inşası üzrə İtaliyada boruların tikintisinə başlanıb. Melendugno şəhərindəki 1,5 kilometrlik mikrotunelin inşası tamamlanıb. Boru kəmərinin İtaliya hissəsinin və qəbul terminalının tikintisinin yekunlaşması üzrə işlər davam edir. TAP-ın İtaliyadan keçəcək təxminən 8 kilometrlik hissəsində boruların 3 kilometri xəndəyə endirilib.

Yunanıstan, Albaniya və İtaliyada boruların 99 faizi marşrut xətti boyunca düzülüb. Üç ölkədə boruların 99 faizi qaynaqlanıb, xəndəkqazma işlərinin isə 99 faizi tamamlanıb. Yunanıstan, Albaniya və İtaliyada boru kəməri marşrutunun 99 faizində torpaq örtüyü bərpa edilib.

TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına da başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.

Xatırladaq ki, TAP "Şahdəniz-2" qazını CQBK (Cənubi Qafqaz Boru Kəməri) və TANAP-dan (Trans-Anadolu Qaz Boru Kəməri) qəbul edərək Yunanıstan və Albaniya vasitəsilə Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 810 metr dərinlikdən, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir.

TAP kəməri TANAP-la birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Kəmər buradan Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə - Adriatik dənizi sahillərinə doğru uzanacaq və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Burada kəmər İtaliyanın TAP "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsinə birləşəcək.

TAP layihəsi İtaliya torpağında sona çatsa da, gələcəkdə Azərbaycan qazının Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriyaya çatdırılması üçün böyük imkanlar yaradır.

TAP-ın altı səhmdarından üçünün - BP, SOCAR və "Snam S.p.A."nın hər biri layihədə 20, "Fluxys" 19, "Enagas"16, "Axpo" isə 6 faizlik payla iştirak edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan Ordusunda silah və hərbi texnika yay istismar rejiminə keçirilir





Azərbaycan Ordusunun bütün hərbi hissə və bölmələrində 2020-ci ilin döyüş hazırlığı planına əsasən silah, döyüş və xüsusi texnika yay mövsümündə istismar rejiminə keçirilir. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, döyüş və xüsusi texnikanın yanacaq-sürtkü materialları hərbi hissələrdəki texniki xidmət məntəqələrində dəyişdirilir və onlara planlı şəkildə mövsümi qulluq göstərilir.

# Atəşkəs rejimi 25 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# "Yelo Bank" ASC-nin vəzifəli şəxslərinin qanunsuz əməlləri ifşa edilib

Ölkəmizdə həyata keçirilən davamlı iqtisadi inkişaf siyasətinin mühüm şərtlərindən biri kimi şəffaflıq və maliyyə intizamının təmin edilməsi, həyata keçirilən iqtisadi islahatların korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəklənməsi prokurorluq orqanları tərəfindən qanunla ona həvalə olunan səlahiyyətləri çərçivəsində daim diqqət mərkəzində saxlanılmaqla aidiyyəti dövlət qurumları ilə əlaqəli şəkildə korrupsiya hüquqpozmaları törətmiş vəzifəli şəxslərə qarşı ardıcıl mübarizə tədbirləri davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, belə tədbirlərdən biri kimi "Yelo Bank" Açıq Səhmdar Cəmiyyətinin vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə daxil olmuş məlumatlar Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində bankın 12 saylı filialının direktoru Həsənov Ənvər Şükür oğlunun filialın xəzinədarı İbrahimli Babək Vəzahir oğlu ilə birgə vəzifə səlahiyyətlərindən sui-istifadə edərək özü və ya üçüncü şəxs üçün qanunsuz olaraq maddi və sair nemətlər əldə etmək məqsədilə 2017-ci ilin yanvar ayından etibarən vətəndaşların razılığı olmadan qanunsuz olaraq pul vəsaitlərinin mübadiləsini, o cümlədən 19 fiziki şəxsin xəbəri olmadan onların adlarına əməliyyatlar apararaq ümumilikdə 190 min ABŞ dolları məbləğində qanunsuz valyuta alışı əməliyyatlarını həyata keçirmələrinə şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam, hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - Rabitə xətt təsərrüfatının tikintisi və istismarı üçün tələb olunan əsas və köməkçi mal-materialların (kabel meydançası, travers, TPP muftaları və s.) satın alınması

**İştirak haqqı: 500 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını "ASAN ödəniş" sistemi vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu etender.gov.az vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: "Aztelekom"Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **03 iyun 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **11 iyun 2020-ci il saat 17:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **12 iyun 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - "Aztelekom" MMC-nin inzibati və texnoloji binasının 2-ci mərtəbəsinin xətt aparat sexində lambirin konstruksiyalı otaqların, həmçinin digər mərtəbələrdəki divarlarda lambirin üzlüklərin yanmayan materiallarla əvəz olunması işlərinin satın alınması

**İştirak haqqı: 100 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını "ASAN ödəniş" sistemi vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu etender.gov.az vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **03 iyun 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **11 iyun 2020-ci il saat 17:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **12 iyun 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - Rabitə xətt təsərrüfatının tikintisi və istismarı üçün tələb olunan mal-materialların (KKQ-1, konsol, kronşteyn, beton örtük və s.) satın alınması

**İştirak haqqı: 500 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını "ASAN ödəniş" sistemi vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu etender.gov.az vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: "Aztelekom"Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **03 iyun 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **11 iyun 2020-ci il saat 17:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **12 iyun 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

# Qazaxıstan sərhədçiləri tərəfindən öldürülən Azərbaycan vətəndaşının meyiti ailəsinə təhvil verilib

Qazaxıstan sərhədçiləri tərəfindən öldürülən Azərbaycan vətəndaşının meyiti ailəsinə təhvil verilib.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, mayın 6-da Xəzər dənizinin mərkəzi istiqamətində DSX-nin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmisi tərəfindən aprelin 30-da Qazaxıstan Respublikasının Sərhəd Xidmətinin Sahil Mühafizəsi əməkdaşlarının Xəzər dənizində 4 nəfər Azərbaycan Respublikası vətəndaşını saxlamaları zamanı silahın tətbiqi nəticəsində həyatını itirmiş Neftçala rayon sakini, 1969-cu il təvəllüdlü İbrahimov Qəhrəman Kamil oğlunun cənazəsi qəbul edilib. Cənazə həmin gün Q.İbrahimovun ailəsinə təhvil verilib.

***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 15 aprel 2020-ci il tarixli buraxılışında DOST Agentliyi tərəfindən videoçarxların və infoqrafika işlərinin satın alınmasına dair elan edilmiş elektron açıq tender proseduru üzrə tələb olunan sənədlərin qəbulu (tender təklifi və bank təminatı istisna olmaqla) **15 may 2020-ci il saat 15:00-a,** tender təkliflərinin və təklifin təminatının qəbulu vaxtı **27 may 2020-ci il saat 14:00-a,** təkliflərin açılışı **29 may 2020-ci il saat 10:00-a** dəyişdirilmişdir.

***Tender komissiyası***

## Avropa İttifaqını "tarixi miqyaslı" tənəzzül gözləyir

Avropa Komissiyası (AK) hesab edir ki, Avropa İttifaqını (Aİ) misli görünməmiş iqtisadi tənəzzül gözləyir. Belə ki, Aİ-nin üzvü olan ölkələrin məcmu ÜDM-in minimum 7 faiz azalacağı təxmin edilir. Bu barədə "Euronews" telekanalı xəbər verir.

Almaniya, Fransa, İtaliya, İspaniya və digər ölkələrdə karantin tədbirləri elan olunanda AK güman edirdi ki, mal və xidmət istehsalı ən pis halda 2,5 faiz azalacaq. Lakin bu məlumat qeyri-rəsmi idi. Sonradan bu rəqəmə dəfələrlə yenidən baxıldı - özü də qeyri-rəsmi olaraq artım istiqamətində.

Dünən AK vahid Avropanın iqtisadiyyatını yaxın aylarda nələr gözləyəcəyi barədə ilk rəsmi proqnozunu açıqlamışdır. İqtisadiyyat üzrə Avropa Komissarı Paolo Centilone qeyd etmişdir ki, bərpa yalnız gələn il başlayacaq, amma bu, "tənəzzülü kompensasiya etməyə imkan verməyəcək".

## Türkiyənin şimal-şərqində üç terrorçu zərərsizləşdirildi

Türkiyənin şimal-şərqində təhlükəsizlik qüvvələrinin PKK terrorçu təşkilatına qarşı keçirdiyi əməliyyatın gedişində üç silahlı zərərsizləşdirilmişdir. Bu barədə Daxili İşlər Nazirliyi məlumat vermişdir.

Məlumata görə, hadisə Ağrı vilayətinin Doğubəyazid yaşayış məntəqəsində baş vermişdir. Yerli jandarm komandanlığının keçirdiyi əməliyyat zamanı hücum planlaşdıran terrorçular məhv edilmiş, onlara məxsus raket qurğuları və silah-sursat müsadirə olunmuşdur. Bölgədə antiterror əməliyyatı davam edir.

Srağagün Daxili İşlər Nazirliyi Doğubəyaziddə PKK-nın iki terrorçusunun zərərsizləşdirilməsi barədə məlumat vermişdi.

## "Azərneftkimyaquraşdırma" ASC səhmdarlarının nəzərinə

"Azərneftkimyaquraşdırma" ASC-nin səhmdarlarının illik Ümumi Yığıncağı 25 iyun 2020-ci il tarixdə saat 14:00-a təyin edilmişdir.

Ümumi Yığıncağın keçiriləcəyi ünvan: AZ1108, Bakı şəhəri, Dərnəgül qəsəbəsi, məhəllə 2090, küçə 560/510.

Gündəlikdə duran məsələlər:

1. "Azərneftkimyaquraşdırma" ASC-nin 2019-cu ilin yekunlarının maliyyə-təsərrüfat fəaliyyətinin yekunları barədə hesabatı;
2. "Azərneftkimyaquraşdırma" ASC-nin təşkilati-hüquqi formasının dəyişdirilməsi.

**Əlaqə telefonu: 050 256 77 11**

***İdarə Heyəti***

## "Bakı Sığorta" ASC səhmdarlarının nəzərinə

22 iyun 2020-ci il saat 11:00-da "Bakı Sığorta" ASC-nin Yasamal rayonu, A.M.Şərifzadə küçəsi, 315C ünvanında yerləşən inzibati binasında cəmiyyətin səhmdarlarının növbədənkənar Ümumi Yığıncağı keçiriləcəkdir. İclasın gündəliyi, əlavə məlumat, o cümlədən səhmdarların Ümumi Yığıncağının gündəliyi üzrə materiallarla tanış olmaq üçün "Bakı Sığorta" ASC-yə (Bakı şəh., Yasamal rayonu, A.M.Şərifzadə küçəsi, 315C ünvanına), həmçinin 969 telefon nömrəsi vasitəsilə müraciət edə bilərlər.

***İdarə Heyəti***

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən Fatma Hüseyn qızı Abdullazadənin adına Sabunçu rayonu, Bilgəh bağ massivində yerləşən bağ evinə verilmiş (JN-14599H KOD 00501016 ) 31.08.2004-cü il tarixli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi qocaman jurnalist

**HƏMZƏ VƏLİMƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Fərman Bağırov ailəsi ilə birlikdə Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru Şaiq Əsgərova anası

**SƏLMİ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"GünayBank" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Mərkəzi Bankının sədrinin birinci müavini Alim Quliyevə atası

**SƏLİM QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli akademiyanın İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri Ağahüseyn Şükürova oğlu

**NURAN ŞÜKÜROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mahmud Məmmədov Azərbaycan Respublikası Mərkəzi Bankının sədrinin birinci müavini Alim Quliyevə atası

**SƏLİM QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7481
Sifariş 1190
Qiyməti 40 qəpik